QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 135 (5855) **27 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymətі 40 qəpik**

# Azərbaycan-Türkiyə əlaqələrində yeni mərhələ!

## *Vizanın ləğvi ölkələrarası qardaşlığın əsl nümunəsidir*



Səh 2

4

**Əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı müşavirə keçirilib**



6

**Füzulidə şəhid ailələri ilə görüş keçirilib**



6

**XİN: "Ermənistanın iddiaları riyakarlıqdan başqa bir şey deyil"**



# Azərbaycan-Türkiyə əlaqələrində yeni mərhələ!

## *Vizanın ləğvi ölkələrarası qardaşlığın əsl nümunəsidir*

***Bu günlərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinə viza tələbinin ləğvi ilə bağlı nota ünvanlanıb. Əlavə edək ki, Azərbaycan Respublikası ərazisində 30 gündən artıq qalmaq istəyən Türkiyə Respublikası vətəndaşlarının statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir. Türkiyə Respublikası Hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan Respublikası vətəndaşları viza tələbindən azad edilmişdir.***



Viza tələbinin ləğvi qərarı xalqlarımız arasında ortaq etnik-mədəni, tarixi köklərə, qardaşlığa və dostluğa, həmrəyliyə söykənən Azərbaycan və Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına uyğun olaraq, ölkələr arasında münasibətlərin yüksələn xətlə inkişafına növbəti əsaslı töhfədir.

### Azərbaycan-Türkiyə əlaqələri son 27 ildə

14 yanvar 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərlə bağlı imzalanan müqavilənin üzərindən 27 il keçir.

18 oktyabr 1991-ci il tarixində müstəqillik aktı qəbul edən Azərbaycan Respublikasını Türkiyə bir ay keçmədən, yəni noyabrın 9-da tanıyan ilk dövlət oldu. Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr isə, rəsmi olaraq, 1992-ci ilin 14 yanvarından başladı.

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər və yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli-kədərli günlərdə də biri digərinin yanında olub. Ulu Öndər Heydər Əliyevin "bir millət - iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq, daha yüksək səviyyəyə çatmaqda və bir sıra sahələr üzrə isə, keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

İkili əlaqələrin artırılması və gücləndirilməsi məqsədilə 2010-cu ildə prezidentlər səviyyəsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mexanizmi yaradıldı. Sonra Türkiyə-Azərbaycan-Gürcüstan, Türkiyə-Azərbaycan-İran və Türkiyə-Azərbaycan-Türkmənistan üçtərəfli görüşlər keçirildi, regional sabitlik, sülh və rifahı təmin edəcək əhəmiyyətli mexanizmlər işlənildi. Xəzər dənizi enerji qaynaqlarının dünya bazarına çıxarılmasını nəzərdə tutan Bakı-Tbilisi-Ceyhan Boru Kəməri və Bakı-Tbilisi-Ərzurum Qaz Boru Kəməri layihələrinin reallaşdırılması Azərbaycan və Türkiyə arasında strateji ortaqlığa gedən yolda mühüm addım oldu.

Bu gün iki ölkə arasında ticarət həcmi, təxminən 5 milyard dollardır. Hər iki ölkənin hədəfi 2023-cü ilə qədər ticarət həcmini 15 milyard dollara çatdırmaqdır. Qarşılıqlı etibar və həmrəylik əsasında formalaşan Azərbaycan-Türkiyə əlaqələri beynəlxalq platformalarda da davam edir. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və İslam Əməkdaşlıq Təşkilatında birgə əməkdaşlıq nümayiş etdirir. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq çərçivəsində iki ölkənin silahlı qüvvələri arasında koordinasiyanın inkişaf etdirilməsi məqsədilə hər il hərbi manevrlər təşkil olunur. Son olaraq, bu il may ayının əvvəlində, Azərbaycanın paytaxtı Bakı yaxınlığında həyata keçirilən hərbi təlimlərdə 1000 əsgər, 80 tank və zirehli maşın, 60 quru və hava topu, 12 "Mi-35" və "Mi-17" hücum və nəqliyyat vertolyotları, o cümlədən, hava müdafiəetmə sistemləri yer aldı. Manevr 5 maya qədər davam etdi və müvəffəqiyyətlə nəticələndi.

Türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də, məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir.

### "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır"

Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi təhlükəsizliyinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də, məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

Hazırda siyasi müstəvidə ölkələrimiz arasında yüksək səviyyədə münasibətlər formalaşsa da, iqtisadi sahədə əlaqələrin daha da gücləndirilməsinə bir ehtiyac duyulmaqdadır. Çünki Azərbaycan və Türkiyənin mövcud potensialı iqtisadi sferada əlaqələrin, xüsusən də, qarşılıqlı ticarət dövriyyəsinin həcminin indiki ilə müqayisədə xeyli dərəcədə artırılmasına imkan verir.

### Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də xüsusi fəallıq göstərir

Azərbaycan ərazilərinin, artıq 20 ilə yaxın müddətdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanmasına etiraz əlaməti olaraq, bu ölkə ilə sərhədləri bağlamış Türkiyə hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də xüsusi fəallıq göstərir, bu məsələdə ölkəmizin ədalətli mövqeyinə tam dəstək verir. Ölkəmizdə rəsmi səfərdə olarkən, Türkiyənin Baş naziri, bir daha təsdiq etdi ki, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmadan İsveçrədə imzalanan, Ermənistanla münasibətlərin normallaşmasını, sərhədlərin açılmasını nəzərdə tutan Sürix protokollarının parlamentdə ratifikasiyası mümkün deyil: "İsveçrədə Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi adlandırdığımız anlaşmaların imzalanması hazırda, məhz Ermənistan tərəfindən dondurulmuş vəziyyətdədir. Bizdə isə bu iş, bildiyiniz kimi, parlamentə həvalə edilmişdir. Ancaq bizim parlamentə həvalə edilmiş bu normallaşma prosesi istiqamətindəki protokolla əlaqədar çox açıq və dəqiq bir ifadəmiz vardır. O, nədir?! Dedik ki, bu Dağlıq Qarabağ mövzusu, rayonlar məsələsi, Ermənistan-Azərbaycan arasındakı problem öz həllini tapmadan Türkiyə Böyük Millət Məclisindən müsbət bir qərarın çıxması mümkün deyildir. Bu, çox açıq və dəqiq surətdə göz qabağındadır. Bunu Minsk Qrupu həmsədrlərinin üçünə də söylədik, izah etdik".

Hazırda isə Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli istiqamətində konstruktiv mövqe nümayiş etdirməyən və beləliklə, həm də Türkiyə ilə münasibətlərin normallaşmasında maraqlı olmadığını göstərən Ermənistan yenə də region dövlətləri ilə mehriban qonşuluq prinsipləri ilə yaşamaq niyyətindən uzaq olduğunu nümayiş etdirir. Bununla işğalçı dövlət Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik edən ATƏT-in Minsk Qrupuna da etinasız yanaşdığını göstərir. Çünki ATƏT-in Minsk Qrupunun münaqişə tərəflərinə təqdim etdiyi yenilənmiş Madrid prinsiplərinə indiyə qədər, məhz Ermənistan münasibət bildirmir. Halbuki Azərbaycan prinsip etibarilə, çox kiçik istisnalarla bu təklifi qəbul etdiyini bildirib. Lakin yenilənmiş Madrid prinsiplərinin tərəflərə təqdim olunmasından, təxminən 6 ay vaxt keçsə də, Ermənistan buna heç bir cavab verməyib. Prezident İlham Əliyev isə belə vəziyyətdə, Azərbaycanın konkret və qətiyyətli mövqeyini ortaya qoyur: "Ermənistan tərəfi öz mövqeyini bildirməlidir. Ya Rusiya, Fransa, Amerika tərəfindən verilmiş təklifə müsbət cavab verəcək və o təqdirdə, biz məsələnin həllinə yaxınlaşacağıq. Ya da mənfi cavab veriləcək və beləliklə, danışıqlar prosesi pozulacaq və Ermənistan ilə Azərbaycan arasında yeni mərhələ başlaya bilər. Əgər Ermənistan tərəfi verilən təklifə müsbət cavab verərsə və bunun əsasında Azərbaycan torpaqlarından Ermənistanın işğalçı qüvvələrinin çıxması prosesi başlanarsa, Azərbaycan, təbii ki, Ermənistanla bütün sərhədləri açacaqdır. Bütün kommunikasiyalar açılacaqdır və beləliklə, bölgədə tammiqyaslı sülh və təhlükəsizlik tədbirləri təmin oluna bilər".

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri çərçivəsində, yaddaqalan və dövlətlərimiz arasında əlaqələrin inkişafına mənəvi bir töhfə sayılacaq məqamlardan biri də, heç şübhəsiz ki, Bakının Nəsimi rayonunda, Türkiyənin Azərbaycandakı səfirliyinin qarşısında, Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki parkda, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsinin açılışı oldu. Abidənin ucaldıldığı yer, bilavasitə Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olub. Məhz Azərbaycan Prezidentinin bu diqqəti nəticəsində, sözügedən möhtəşəm abidə paytaxtımızın mərkəzində, Bakının tarixi yerində, Türkiyə səfirliyinin yaxınlığında ucaldılıb.

### "Böyük Atatürkün abidəsinin Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəzində ucaldılması bugünkü günü tariximizə bayram günü kimi yazacaqdır"

"Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz" deyən Atatürkün ölkəmizdə möhtəşəm abidəsinin ucaldılmasını Prezident İlham Əliyev yüksək qiymətləndirərək, bunun ölkəmizin tarixinə bayram günü kimi yazılacağını bildirmişdir: "Böyük Atatürkün abidəsinin Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəzində ucaldılması bugünkü günü tariximizə bayram günü kimi yazacaqdır. Bu, Türkiyə-Azərbaycan dostluğunun bayramıdır, birliyin bayramıdır. Bu, böyük Öndərin xatirəsinə Azərbaycan xalqının qəlbindəki duyğuların ifadəsidir".

Azərbaycan paytaxtında belə bir abidənin ucaldılmasından son dərəcə məmnun olan Baş nazir Rəcəb Tayyib Ərdoğan isə, bir daha qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələrinin bənzərsiz mahiyyəti var: "Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq, davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır". Bütün bunlar, ölkələrimiz arasında əldə olunan yeni razılaşmalar, imzalanan müqavilələr bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən və onun sarsılmazlığından xəbər verir.

**RƏFİQƏ HZÜSEYNOVA**

# Paytaxtımızda "Jara-2019" həyəcanı yaşanır

*Paytaxt Bakı bu gün "Jara-2019" həyəcanını yaşayır. Xəzər dənizinin sahilindəki ən gözəl istirahət mərkəzlərinin birində keçirilən "Jara 2019" Dördüncü Beynəlxalq Musiqi Festivalının açılış mərasimi, həmişə olduğu kimi, bu dəfə də paytaxt sakinləri tərəfindən olduqca maraq və coşquyla qarşılanıb. Bakının mədəni həyatına hərarət, coşqunluq gətirən bu festivalın yüksək səviyyədə keçirilməsi üçün yüksək hazırlıq işləri görülüb.*













Vurğulamaq yerinə düşər ki, "Jara" musiqi aləmində əlamətdar hadisəyə çevrilməklə yanaşı, digər mühüm bir məqamı da nümayiş etdirir. Bu, strateji tərəfdaşlar olan Rusiya və Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, humanitar əlaqələrin genişlənməsinə töhfə verir. "Jara" həm də Azərbaycanla Rusiya arasında son illər bütün sahələrdə dinamik inkişaf edən, o cümlədən, humanitar sahədə genişlənən münasibətlərin göstəricisi kimi xarakterizə olunur. Musiqi bayramının ölkəmizin iqtisadi həyatı üçün də xüsusi önəmi var. Festivalı izləmək üçün Azərbaycana gələn çoxsaylı qonaqlar ölkəmizdə istirahət və əyləncə üçün yaradılmış şəraitlə də yaxından tanış olur, paytaxtımızın və regionlarımızın inkişafını öz gözləri ilə görürlər. Bu da, Azərbaycan həqiqətlərinin və ölkəmizin təbliği baxımından olduqca faydalıdır.

Festivalın heyrətamiz Bakı şəhərində keçirilməsi, onun əhəmiyyətini daha da artırır. Şəhərimizə gələn qonaqlar çox zəngin təəssüratla qayıdırlar. Əlbəttə, bu festival Azərbaycan xalqının qonaqpərvərliyinin də bir təqdimatıdır. Bakı fərqli görünüşü, sürətli inkişafı, çiçəklənməsi ilə qonaqları təəccübləndirir.

Əlbəttə ki, milli musiqimizin təbliğində də bu festivalın kifayət qədər rolu var. Dünyanı ecazkarlığı ilə heyrətləndirən Azərbaycan musiqisi "Jara-2019" iştirakçılarını heyrətləndirməyə bilməz. Festivalının açılışında fəxri qonaqlar arasında olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aparıcının ona ünvanladığı suala cavab olaraq "Bizim xalqımız musiqi qabiliyyəti olan xalqdır. Musiqi isə ürəkdən gəlir, Yaradandan gəlir. Yaradıcılıq sözü "yaradan" sözündəndir. Mənə elə gəlir ki, bu, dünyanı daha yaxşı edir", deməsi xalqımızın böyük istedada malik olmasını ifadə etmiş olur. "Bəs Bakı sizdə hansı mahnı ilə assosiasiya yaradır?" sualına gəlincə isə, Leyla Əliyeva "Bizim o qədər mahnılarımız var ki... Bakı məndə musiqi, sevgi və sevinclə assosiasiya yaradır. Əlbəttə ki, Müslüm Maqomayevin "Azərbaycan"ı nömrə birdir" deyə bildirib.

"Jara" festivalının ruhuna gəlincə isə "Əlbəttə ki, insanlardadır, sizin enerjinizdə, sizin sevginizdədir. Sizin düşüncələrinizdə və Azərbaycandadır" deyə bildirib.

Xatırladaq ki, festivalın təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın xalq artisti Emin Ağalarov, Rusiyanın əməkdar artisti Qriqori Leps, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikovdur. Festivalda Rusiyanın tanınmış ulduzları ilə yanaşı, yerli müğənnilər də iştirak edirlər. Konsertin ilk günündə Filipp Kirkorov, A'Studio, Vera Brejneva, Bosson, Rita Dakota, Dmitri Matatov, Mozgi, Qlyuk'oza, Nikolay Baskov, Kristina Orbakayte, Burito, Emin Ağalarov, Elina Çaqa, Zivert, Aleksandr Panayotov, Slava, Mişa Romanova, Çingiz Mustafayev, MONATIK, Zülfiyə Xanbabayeva və başqaları çıxış ediblər. İfaçılar öz repertuarlarında hit mahnıları səsləndiriblər. Builki festival çərçivəsində də maraqlı ifalar və duetlər olacaq. Ümumilikdə, festivalda dörd gün ərzində 250-dək ifaçı çıxış edəcək.

Tamaşaçılar yayın qızmar günündə, sözün əsl mənasında, "Jara" hərarətini yenidən yaşayırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı müşavirə keçirilib

***Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində tapşırıqların icrası istiqamətində fəaliyyət davam etdirilir. Tədbirlər Planın 3.4-cü bəndinin (Məşğulluğa kömək üzrə əlaqələndirmə komitələrinin fəaliyyətinin gücləndirilməsi) icrasını təmin etmək məqsədilə iyulun 26-da Baş Nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədovun rəhbərliyi və komitə rəhbərlərinin iştirakı ilə ikinci müşavirə keçirilib.***




AZƏRTAC xəbər verir ki, müşavirədə respublikada və ayrı-ayrı rayonlarda qeyri-formal məşğulluqla mübarizə sahəsində komitələr tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirə edilib, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 293 nömrəli Qərarı ilə təsdiq edilmiş Məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitələrinin Əsasnaməsi təqdim olunub.

İclasda çıxış edən Əli Əhmədov deyib ki, 2019-cu ildən etibarən Azərbaycanda əmək münasibətlərinin təkmilləşdirilməsi istiqamətində ciddi layihələr həyata keçirilməkdədir. Bu layihələrin məqsədi insanların həyat səviyyəsinin daha da yüksəldilməsi, bütövlükdə əmək münasibətlərinin tənzimlənməsi və yaxşılaşdırılması istiqamətində qarşıda duran vəzifələrin həyata keçirilməsindən ibarətdir. Baş Nazirin müavini 2019-cu ildə Prezident İlham Əliyevin sərəncamları ilə ardıcıl olaraq iki dəfə minimum əmək haqlarının və minimum pensiyaların artırılması, dövlət tərəfindən aztəminatlı ailələrə ödənilən bir sıra güzəştlərin yüksəldilməsi və Azərbaycan vətəndaşlarının böyük kütləsinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən işləri xüsusi qeyd edib. Bildirib ki, bütün bunlar, eyni zamanda, əmək münasibətlərinin təkmilləşdirilməsi məqsədlərinə xidmət edir.

Baş Nazirin müavini “Azərbaycan Respublikasının əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamına əsasən yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası tərəfindən 2018-ci il və 2019-cu ilin birinci yarımilliyi ərzində görülmüş işlər barədə məlumat verib. Əli Əhmədov deyib ki, 2019-cu ilin ilk altı ayında əmək müqaviləsi bildirişlərinin sayı 101.551 artaraq 1 iyul tarixinə 1.503.731 nəfər təşkil edib. Xatırladaq ki, 2018-ci ildə bu göstərici 91.389 təşkil edib, ümumilikdə isə Komissiya yaranandan bəri təxminən 250.000 müqavilə artımı olub.

Həmçinin 2019-cu ilin 1 yanvar tarixinə olan məlumata görə, Vergilər Nazirliyində qeydiyyatda olan aktiv fiziki şəxs fərdi sahibkarların sayı ötən ilin əvvəli ilə müqayisədə 32.457 nəfər artaraq 361.001 nəfər, 2019-cu il 1 iyul tarixinə isə aktiv fiziki şəxs fərdi sahibkarların sayı 8.569 nəfər artaraq 369.570 nəfər təşkil edib.

Respublikada qeyri-formal məşğulluqla mübarizə çərçivəsində qanunvericilik aktlarında mühüm dəyişikliklər edilib. Belə ki, “Məşğulluq haqqında” yeni Qanun qəbul olunub, işsizlikdən sığorta sisteminin tətbiqinə başlanılıb, vergi və sosial sığorta sahəsində formal məşğulluğun təşviqi ilə bağlı dəyişikliklər edilib, 2020-ci ildən respublika üzrə icbari tibbi sığortanın tətbiqi təsdiqlənib, digər normativ hüquqi aktlara dəyişiklik edilib və mühüm layihələr hazırlanıb.

Komissiya Katibliyinin rəhbəri Elnur Süleymanov komitələrlə Katiblik arasında olan əməkdaşlıqdan söz açıb. O, hər rüb Katiblik tərəfindən komitələrə rayon üzrə qeyri-formal məşğulluğun qiymətləndirilməsinə dair cədvəllərin hazırlanaraq təqdim edildiyini və bunun da yerlərdə qeyri-formal məşğulluqla mübarizədə mühüm rol oynadığını vurğulayıb.

Sonda Əli Əhmədov uğurlu fəaliyyətlərinə görə “Yüksək nəticə”, “Davamlı artım”, “Etibarlı tərəfdaş” və “Fəal təşviqatçı” nominasiyaları üzrə Ağcabədi, Qəbələ, Şəki, Lənkəran, Sumqayıt, Göygöl, Zaqatala, Xaçmaz, Şəmkir, Abşeron və Qax rayon Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrini mükafatla təltif edib.

# Nazirlər Kabinetində İranın Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüş olub



İyulun 26-da Azərbaycan Respublikası Baş Nazirinin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Əli Səccadi ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iki dost və müsəlman ölkə olan İran ilə Azərbaycan arasındakı münasibətlərdən danışan Baş Nazirin müavini qarşılıqlı əməkdaşlıq əlaqələrinin bütün sahələrdə inkişafından məmnunluğunu ifadə edərək, bu əməkdaşlığın yalnız iqtisadi sahədə deyil, humanitar sahədə də genişləndirilməsinin vacibliyini vurğulayıb. Əli Həsənov Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə qalxmasında ulu öndər Heydər Əliyevin xüsusi rolu olduğunu deyib və əlavə edib ki, bu əlaqələr Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri əlaqələrimizin inkişafını daha da sürətləndirib.

Əsl dostluğun çətin və ağır günlərdə özünü açıq büruzə verdiyini deyən Baş Nazirin müavini Azərbaycanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkdiyi dövrdə İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin, beynəlxalq humanitar təşkilatların ölkəmizə etdikləri yardımlara görə təşəkkürünü bildirib. Ətraflı məlumata görə minnətdarlığını bildirən Əli Səccadi sabit və inkişaf edən, tərəfdaş ölkə olan Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiklərini diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Ziya Zakir Acar: “Viza tələbinin ləğvi barədə qərar Türkiyə vətəndaşları tərəfindən böyük sevinclə qarşılandı”



Türkiyə vətəndaşlarına qardaş ölkədə 30 gün vizasız qalmaq hüququnun verilməsi üçün Azərbaycanın qəbul etdiyi qərar tarixi qərardır. Bu hüquq iki qardaş xalqın qarşılıqlı istəyinə, mənəvi dəyərlərimizə göstərilən ehtiramdır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri, İğdır Mədəniyyət və Turizm İdarəsinin sabiq rəisi Ziya Zakir Acar bildirib.

“Bu qərar Türkiyə vətəndaşları tərəfindən böyük sevinclə qarşılandı”, - deyən Ziya Zakir Acar bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri yaxın gələcəkdə iki ölkə arasında münasibətlərin dinamik inkişafını daha gücləndirəcək. Vizasız gediş-gəliş bütün parametrləri ilə hər iki tərəfə fayda gətirəcək, əlaqələri şaxələndirəcək.

# “Dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində ciddi uğurlara imza atılıb”

*Dövlət Komitəsində 2019-cu ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib*



***İyulun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2019-cu ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.***

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atdığını deyib. Komitə sədri qeyd edib ki, bu gün dövlət və dini icmalar arasında münasibətlər yüksək səviyyədə qurulur, qarşılıqlı əlaqələr qanun çərçivəsində inkişaf etdirilir, maarifləndirmə işi geniş miqyasda aparılır, müxtəlif dini konfessiyalar arasında tolerantlıq münasibətləri davam etdirilir. Bundan başqa, dövlət dini icmalara göstərdiyi qayğını gündən-günə artırır.

Hesabat dövrü ərzində dini sahədə bir sıra məsələlərin müsbət həllinə nail olunduğunu bildirən Dövlət Komitəsinin sədri dövlət-din münasibətlərinin inkişaf etdirilməsi, cəmiyyətin maarifləndirilməsi, Azərbaycanın tolerantlıq ənənələrinin təbliği və təşviqi, dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, radikal cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görüldüyünü deyib. Dindən sui-istifadə hallarının qarşısının alınması, din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılması istiqamətində qabaqlayıcı, profilaktik və inzibati tədbirlər həyata keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2019-cu ilin yanvar-iyun aylarındakı fəaliyyəti və qarşıda duran vəzifələr barədə məlumat verərək bildirib ki, 2019-cu ilin ilk 6 ayı ərzində dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilərək ümumi sayı 940-a çatıb. İcmalardan 907-i İslam, 33-ü qeyri-islam təmayüllüdür. Hesabat dövründə, ümumilikdə 32 dini icma (31-i İslam, 1-i qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alınıb.

Komitə sədrinin müavini vurğulayıb ki, Dövlət Komitəsi tərəfindən hesabat dövründə radikal, qeyri-ənənəvi və milli kimliyimizə zidd təbliğat aparan dini təriqətlərin təlimlərini yaymaq, tərəfdarlarını artırmaq, dini fəaliyyət sahəsində cərəyan edən proseslərə təsir etmək məqsədilə dini ədəbiyyatın ölkəyə idxalına, çapına və yayılmasına xüsusi önəm verdiklərini nəzərə alaraq, bu istiqamətdə qabaqlayıcı tədbirlər həyata keçirilib, ölkədə dini ayrı-seçkilik və qarşıdurma meyillərinin yayılmasına rəvac verilməməsi, dini dözümlülük mühitinə mənfi təsir göstərə biləcək ədavəti, nifrəti, ekstremizmi və radikallığı təbliğ edən dini təyinatlı ədəbiyyatın xaricdən ölkəyə gətirilməsi və nəşrinin qarşısının alınması məqsədilə müvafiq işlər görülüb və ümumilikdə idxalla bağlı 2019-cu ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 1452 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 19 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb, ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 104 adda dini ədəbiyyata baxılaraq, onlardan 6-sının çapı məqsədəuyğun sayılmayıb.

Cari ilin müvafiq dövrü ərzində Dövlət Komitəsi tərəfindən ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, eyni zamanda, Azərbaycan vətəndaşlarının, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə ayrıca və digər qurumlarla birgə ümumilikdə 250-ə yaxın maarifləndirici tədbir həyata keçirilib. 20 mindən artıq insanın iştirak etdiyi bu tədbirlərin təşkilində mərkəzi və yerli icra hakimiyyəti orqanları, Silahlı Qüvvələr, eləcə də hüquq mühafizə orqanları, təhsil müəssisələri, gənclər təşkilatları, dini qurumlar və QHT-lərlə yaxından əməkdaşlıq edilib. Qeyd olunan qurumlarla yanaşı, Dövlət Komitəsi ötən illərin təcrübəsinin davamı olaraq, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, QMİ, Yeni Azərbaycan Partiyası (YAP), YAP Gənclər Birliyi ilə əməkdaşlığı davam etdirib.

Ramazan ayının yekunlarına dair hesabatla çıxış edən Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə Ramazan ayı ilə bağlı təşkil edilən tədbirlərdən, Komitənin keçirdiyi monitorinqlərdən danışıb. O bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hər il olduğu kimi, bu il də Ramazan ayı boyunca respublikada dini durum nəzarətdə saxlanılıb, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlər keçirilib, eləcə də dini maarifləndirmə sahəsində silsilə görüş və konfranslar təşkil edilib. Ramazan ayı ərzində Dövlət Komitəsinin Mərkəzi Aparatına yerlərdən daxil olmuş məlumatlar ümumiləşdirilərək təhlil olunub, respublikada ümumi dini durumun qiymətləndirilməsi aparılıb. C.Əlifzadə bildirib ki, ümumən Ramazan ayı yüksək səviyyədə keçib, ay boyu müvafiq tədbirlərin təşkili üçün dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov İnstitutun 2019-cu ilin birinci yarımili üzrə fəaliyyəti barədə məruzə ilə çıxış edib. O bildirib ki, hesabat dövrü ərzində müvafiq iş planına əsasən tədrisin təşkili, elmi və dövri nəşrlər, elmi konfrans, simpozium və dəyirmi masalar, respublika əhəmiyyətli mühüm günlərə dair tədbirlər, maarifləndirmə işi, mətbuatla əlaqələr kimi bir çox sahəni əhatə edən işlər görülüb. O bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu 2018/2019-cu tədris ilində fəaliyyətə başlayıb və ilk tələbə qəbulunu bu ildə həyata keçirib. Qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən ödənişsiz əsaslarla III qrup üzrə iki istiqamətdə - İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə həyata keçirilib və ötən tədris ilində dövlət sifarişi əsasında qəbul üzrə ayrılmış plan yerləri tam dolub. İslamşünaslıq ixtisası üzrə 35, Dinşünaslıq ixtisası üzrə isə 25 nəfər olmaqla, ümumilikdə, 60 abituriyent tələbə sıralarına qəbul edilib. Hazırda İnstitutda ümumilikdə 109 tələbə təhsil alır. Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 6 nömrəli qərarı ilə İnstituta 2020/2021-ci il üzrə doktoranturaya qəbul başlanılıb. Rektor, həmçinin hesabat dövrü ərzində İnstitutda ictimaiyyət nümayəndələri, elm xadimləri, tədqiqatçıların iştirakı ilə müxtəlif mövzularda elmi seminarlar, görüşlər, dəyirmi masalar, konfransların təşkil olunduğunu, İnstitutun tanıdılması məqsədilə bölgələrə səfərlər təşkil edildiyini, tələbələrin təhsillə bərabər, sosialyönümlü layihələrə, maarifləndirmə tədbirlərinə də cəlb olunduqlarını deyib. C.Məmmədov vurğulayıb ki, bu ilin 6 ayı ərzində AİI öz fəaliyyətində xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılmasına xüsusi önəm verib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Azərbaycanda mövcud olan ideal dövlət-din modelinin, eyni zamanda, multikulturalizm siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayaraq, bu uzaqgörən siyasətin uğurla həyata keçirilməsinin Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu deyib. O, ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması və dini icmalar arasında mövcud tolerantlıq mühitinə kölgə salmağa çalışan mənfi təzahürlərin aradan qaldırılması istiqamətində Dövlət Komitəsi və onun tabeliyində fəaliyyət göstərən qurumlar tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifçilik fəaliyyətini, eləcə də beynəlxalq səviyyəli tədbirlərin təşkilatçılığını yüksək qiymətləndirib.

E.Nəcəfov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və onun tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi arasında əməkdaşlığın genişləndirilməsinin müsbət nəticələrindən danışıb. Bildirib ki, 2019-2020-ci tədris ilindən etibarən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin ixtisasları üçün məcburi tədris olunacaq “Multikulturalizmə giriş” fənni üzrə dərslik artıq yekunlaşmaq üzrədir. Dərslikdə multikulturalizmlə yanaşı, dini müxtəliflik məsələlərinə də geniş yer verilib. Bu dərslik məhz birgə sıx əməkdaşlığın nəticəsində ərsəyə gəlib və cari ilin sentyabr ayında fənni tədris edəcək müəllimlər üçün treninqin təşkili istiqamətində də BBMM ilə MDTF arasında birgə fəaliyyət həyata keçirilməkdədir.

E.Nəcəfov, eyni zamanda, dini-mənəvi dəyərlərin qorunması və inkişafı məqsədilə təbliğatın gücləndirilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, eləcə də bölgədə şöbələrin fəaliyyətinin genişləndirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürüb.

Hesabat yığıncağında Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə “Tərəqqi” və “Dövlət qulluğunda fərqlənməyə görə” medalları ilə təltif edilmiş Dövlət Komitəsinin 7 əməkdaşına medallar təqdim edilib.

# Füzulidə şəhid ailələri ilə görüş keçirilib



Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Füzuli rayonunda şəhid ailələri ilə görüşüb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, çay süfrəsi arxasında keçirilən görüşdə Milli Məclis Sədrinin müavini Bahar Muradova və Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev şəhid ailələri ilə söhbət edib, onların sosial vəziyyəti ilə maraqlanıb, müraciətlərini dinləyiblər.

Ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışan Bahar Muradova bildirib ki, respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladları xalqımızın qəlbində daim yaşayacaq. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Şəhid ailələrinə dövlət tərəfindən daim dəstək göstərilir, onlara mənzillər, minik avtomobilləri verilir. Prezident İlham Əliyevin şəhid ailələri ilə çoxsaylı görüşləri, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və



hərbi əməliyyatlarla əlaqədar itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə dövlət başçısının müvafiq fərmanı ilə birdəfəlik ödəmənin verilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının təzahürüdür.

Şəhid ailələrinin nümayəndələri göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Milli Məclis Sədrinin müavini Bahar Muradova və Füzuli rayon ictimaiyyətinin nümayəndələri daha sonra Alıxanlı kəndinə gələrək 2017-ci ildə Ermənistan ordusunun təxribatının qurbanı olan iki yaşlı Zəhra Quliyevanın və onun nənəsinin məzarını ziyarət edib, ailəsinə baş çəkiblər.

Ailə üzvləri ilə söhbət zamanı Bahar Muradova bildirib ki, 2 yaşlı Zəhranın qətlə yetirilməsi dünya ictimaiyyətinin diqqətini bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə və erməni vəhşiliyinə yönəltdi. ATƏT Parlament Assambleyasının Minskdə keçirilən 26-cı illik sessiyasında Ermənistanın dinc sakinləri qətlə yetirməsi 57 ölkədən olan nümayəndələrin diqqətinə çatdırıldı. Sessiyada Zəhranın və onun nənəsinin qətlə yetirilməsi qəti şəkildə pislənildi, uşaq qatillərinin əməllərinə hüquqi qiymət verilməsi tələb olundu. Balaca Zəhranın heç vaxt unudulmayacağını deyən Bahar Muradova Quliyevlər ailəsində daha bir uşağın anadan olmasına sevincini ifadə edib. Zəhranın atası Elnur Quliyev onlarla görüşə gəldiklərinə, daim qayğılarına qaldıqlarına görə Bahar Muradovaya və Füzuli rayon ictimaiyyətinə minnətdarlığını bildirib.

# “Bakıda keçirilən festival kifayət qədər əhəmiyyətlidir”

“Bakıda keçirilən XV Avropa Gənclər Olimpiya Festivalı Azərbaycanın dünya birliyində artan nüfuzunun, rolunun göstəricisidir. Hesab edirəm ki, Bakıda keçirilən festival kifayət qədər əhəmiyyətlidir”. Bunu SİA-ya açıqlamasında “İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.



Baş redaktorun sözlərinə görə, XV Avropa Gənclər Olimpiya Festivalında Avropanın 50-dən artıq xarici dövlət və 3 mindən artıq əcnəbi və onların nümayəndələri iştirak edir: “Düşünürəm ki, Azərbaycana olan bu münasibət ölkəmizin Avropada, dünyada olan nüfuzunun bir göstəricisidir. Azərbaycanda mütəmadi olaraq beynəlxalq tədbirlər keçirilir. Bildiyiniz kimi bu ilin aprel ayında ölkəmizdə növbəti Formula-1yarışları, may ayında isə UEFA Avropa Liqasının final oyunu Bakı şəhərində keçirildi və s. Hesab edirəm ki, bu kimi digər tədbirlər də əhəmiyyətinə, dəyərinə görə ölkəmizin artan nüfuzundan xəbər verir. Bu mənada hesab edirəm ki, Bakıda artıq bir neçə gündür ki, davam edən XV Avropa Gənclər Olimpiya Festivalı da öz əhəmiyyətinə görə seçilir. Bu kimi festivallar müxtəlif ölkələrdə keçirilir və Yay, qış festivallarına bölünür. Yay festivalları qış festivallarına nisbətən həm idmançıların say tərkibinə görə, həm də onların azarkeşlərinin sayına görə kifayət qədər böyük əhatə dairəsinə malik olur. Düşünürəm ki, hər gün Bakıda və regionlarımızda bu cür mühüm əhəmiyyətli tədbirlər reallaşdırılır”.

*Ceyhun Rasimoğlu*

# XİN: “Ermənistanın iddiaları riyakarlıqdan başqa bir şey deyil”

“Ermənistanın hakimiyyətinin yüksək vəzifəli nümayəndəsi tərəfindən işğal olunmuş ərazilərimiz boyunca “cənub istiqaməti” adlandırılan yeni yolun çəkilməsi barədə verilən açıqlama Ermənistanın əsl niyyətinin hərbi işğala əsaslanan mövcud status-kvonu möhkəmləndirmək və münaqişənin danışıqlar yolu ilə həllinə imkan verməmək və Azərbaycanın işğal olunmuş ərazilərini ilhaq etmək olduğunun növbəti nümunəsidir”. SİA-nın verdiyi məlumata görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada bildirilib.



Qeyd olunub ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyətlər, o cümlədən infrastruktur dəyişikliyinin aparılması Ermənistanın münaqişənin sülh yolu ilə həll edilməsi barədə iddialarının riyakarlıqdan və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmadığını göstərir: “Şimal istiqaməti adlandırılan və işğal olunmuş Kəlbəcər rayonundan çəkilmiş “Vardenis-Ağdərə” avtomobil yolu, eləcə də mərkəzi “Gorus-Laçın” avtomobil yolu təcrübəsi göstərir ki, Qubadlı və Cəbrayıl rayonlarından çəkilməsi nəzərdə tutulan yeni yol işğal altında olan bu ərazilərin təbii və digər resurslarının daha aqressiv formada talan edilməsinə xidmət edəcəkdir.

Ümumiyyətlə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur dəyişikliyi ilə bərabər maddi-mədəni irsin məhv edilməsi, demoqrafik tərkibin dəyişdirilməsi, mineral resursların talan edilməsi və digər bu kimi qeyri-qanuni fəaliyyətlər həyata keçirir.

ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılmış faktaraşdırıcı və qiymətləndirmə missiyalarının nəticəsi olaraq hazırlanmış hesabatlarda qeyri-qanuni fəaliyyətlərin sülh prosesinə ciddi təhlükə yaratdığı təsbit olunur. 2018-ci ildə hazırlanmış “Azərbaycanın Ermənistanın işğal altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peyk məlumatları əsasında sübutlar” adlı hesabatda Ermənistanın qeyri-qanuni əməllərinin miqyası tam aydın şəkildə özünü göstərir.

Beynəlxalq humanitar hüquq, xüsusilə 1949-cu il tarixli Cenevrə Konvensiyası və Əlavə Protokollarına əsasən işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətlərin aparılması qadağandır. ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi işğal olunmuş ərazilərimizdə aparılan və danışıqlar prosesinə ciddi zərbə vuran qeyri-qanuni fəaliyyətləri ciddi şəkildə nəzərə almalıdırlar.

Münaqişənin həlli ilə bağlı münbit şəraitin yaradılmasına baxmayaraq, Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək destruktiv şəkildə qeyri-qanuni fəaliyyətləri davam etdirməsi danışıqlar prosesinin pozulmasına yönəlmiş növbəti təxribatçı cəhddir. Buna görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Beynəlxalq öhdəlikləri tapdalayaraq işğal etdiyi ərazilərdə qanunsuz əməlləri davam etdirən Ermənistanın təxribatçı hərəkətlərini kəskin qınayır və təcavüzkardan bölgəmizdə sülh, təhlükəsizlik və rifaha qarşı yönələn əməllərinə son verməyi və işğalçı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağı təkidlə tələb edirik. İşğalçı ölkənin bu kimi təxribatçı əməllərinə müvafiq şəkildə cavab vermək hüququnu Azərbaycan özündə saxlayır”.

# DSX: Sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində 19 kiloqramadək narkotik vasitə dövriyyədən çıxarılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində keçirilmiş sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində 18 kiloqram 870 qram narkotik vasitəni və 45 həb psixotrop maddəni qanunsuz dövriyyədən çıxarıb.



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyulun 22-də Füzuli rayonunun Böyük-Bəhmənli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində qaçaqmalçılar tərəfindən dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Nəticədə sərhəd pozucuları polietilen paketlərdə ümumi çəkisi 13 kiloqram 670 qram olan heroin, tiryək və marixuana növündə narkotik vasitəni, həmçinin 45 həb psixotrop maddəni hadisə yerində ataraq geriyə qaçıblar.

İyulun 22-də DSX-nin Sahil Mühafizəsinin Lənkəran rayonu Şahağacı kəndi yaxınlığında yerləşən sahil nəzarət bölməsinin xidməti sahəsində 2 naməlum şəxsin sahil xətti yaxınlığında hərəkətləri diqqəti cəlb edib. Sərhəd naryadı onlara yaxınlaşarkən qaçmağa cəhd göstəriblər. Lakin sərhəd naryadı həmin şəxsləri saxlayıb. Onların əşyalarına baxış keçirilərkən içərisində ümumi çəkisi 5,2 kiloqram heroin və tiryək olan bağlama aşkarlanıb.

Saxlanılmış şəxslərin şəxsiyyəti dəqiqləşdirilib. Onların Lənkəran rayon sakinləri 1965-ci il təvəllüdlü Hüseynov Arzuman Adil oğlu və 1973-cü il təvəllüdlü Əsgərov Mürsəl Nail oğlu olmaları müəyyənləşdirilib. Hər iki fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Azərbaycan sağlam gəncliyi və sağlam gələcəyi olan dövlətdir

## Gənclər və İdman Nazirliyinin yaradılmasından 25 il ötür

*Ölkəmiz, müstəqilliyimizin ilk illərindən etibarən, Ulu Öndər Heydər Əliyev gənclərlə iş sahəsini prioritet istiqamət kimi təsbit edib. Məhz Ümummilli Lider Heydər Əliyevin 1994-cü il iyulun 26-da imzaladığı Fərmanla Gənclər və İdman Nazirliyinin yaradılması dövlət-gənclər və idman siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmiş oldu. Gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması əsas məsələlərdən birinə çevrildi. Fərmandan irəli gələrək, gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqəlliyimizin, dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsinə daimi hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində ciddi addımlar atıldı.*




1996-cı ildə müstəqil Azərbaycan Gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, 1997-ci ildə 2 Fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi, çoxsaylı dövlət proqramlarının qəbulu, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Qanunun qəbulu Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürüdür.

Ulu Öndərin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Bu isə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasətinin Prezident İlham Əliyevin uğurla davam etdirməsinin nəticəsidir. Azərbaycan Prezidenti tərəfindən gənclərlə birbaşa bağlı olan dövlət proqramları qəbul olunub ki, onların icrası nəticəsində, dövlət- gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verib və ciddi nailiyyətlər əldə edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin gəncləri cəmiyyətin aparıcı qüvvəsinə çevirmək, onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə təsdiqlədiyi dövlət proqramları uğurla həyata keçirilir. Dövlət quruculuğunda gənclərin artan rolu, onların mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almaları, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşdırılması və inkişafı üçün yaradılmış şərait bu diqqət və qayğının nəticəsidir. Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər İli" elan etməsi də, gənclərin ölkə həyatında fəallığını xeyli artırmışdır. Gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" gənclərə böyük imkanlar yaratmış oldu.

### İDMANIN VƏ BƏDƏN TƏRBİYƏSİNİN İNKİŞAFI DÖVLƏT SİYASƏTİNİN PRİORİTET QOLLARINDAN BİRİNƏ ÇEVRİLDİ

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. "Sağlam bədəndə sağlam ruh olar" pirinsipinə söykənərək, deməк olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir. Ölkəmizdə idmana qayğı bu sahənin inkişafına böyük töhfələr verir. Qeyd edək ki, müstəqilliyimizin ilk illərində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliğinin təşkil edilməsi də diqqətdə duran məsələlər sırasında idi. Təbii ki, idman hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən biri olduğundan, bu sahəyə də dövlət tərəfindən böyük diqqət ayrılıb. Ulu Öndər Heydər Əliyev, hələ ölkəmizə sovet dövründə, rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi surətdə nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü. Bir çox idman kompleksləri, qurğuları, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. Ümumilikdə, ötən əsrin 70-ci illərində Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq, inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq tərzdə göstərən ideoloji-siyasi və iqtisadi böhran səbəbindən, idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin, xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı, bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük dönüş yaratmış oldu. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu. Müstəqil Azərbaycanın həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması və Olimpiya Hərəkatına qoşulması geniş vüsət aldı. İdmanın üzləşdiyi problemlərin aradan qaldırılması, idmançıların maddi rifahının yüksəldilməsi, onlara gələcək qələbələr üçün stimul verilməsi, habelə, ölkədə yeni idman komplekslərinin yaradılması istiqamətində gələcək prioritetlər müəyyənləşdirildi. Qeyd etdiyimiz kimi, 25 il bundan öncə, dövlətin gənclər və idman siyasətinin həyata keçirilməsi üçün Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi Azərbaycan idmanının həyatında mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Bu tarixi seçim Ümummilli Lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər, qısa zaman kəsiyində, öz bəhrəsini verməyə başladı. İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli Olimpiya-İdman Kompleksləri tikilib istifadəyə verilməyə başladı.

### AZƏRBAYCAN DÜNYANIN İDMAN İCTİMAIYYƏTİ TƏRƏFİNDƏN CİDDİ TƏRƏFDAŞ KİMİ QƏBUL OLUNUR

Ulu Öndər Heydər Əliyev siyasətini uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev idman və bədən tərbiyəsinin inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirilməsini diqqətdə saxlayaraq, daim respublikamızın idman imicinin yüksəlməsinə çalışıb. İdmana dövlət qayğısı daha da artıb, ölkəmizin iqtisadi inkişafına və artan maliyyə imkanlarına uyğun olaraq, onun madditexniki bazasının möhkəmləndirilməsi yolunda ciddi işlərə görülüb. Uğurlu idman siyasətinin nəticəsi olaraq, Azərbaycan dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur. Azərbaycanın, qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmamış, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir. İdman hərəkatında uğurların əldə edilməsi, beynəlxalq səviyyədə keçirilən yarışlarda Azərbaycan idmançıları tərəfindən dövlət bayrağımızın ucaldılması, Dövlət Himinin səsləndirilməsi, Azərbaycanın çox mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi ölkəmizin dünya idmanı sahəsində yeri olduğunu bir daha sübut edir. Özünün yüksəliş dövrünü yaşayan Azərbaycan Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula-1" yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etdi. "Bakı-2015" ilk Avropa Avropa Oyunlarının qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə, yüksək tolerantlıq mühitinə və qonaqpərvərliyə malik olan Azərbaycanda keçirilməsinin əhəmiyyəti danılmazdır. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı, oyunlarda 21 qızıl, 15 gümüş, 20 bürünc medal qazanılması Azərbaycanda yeni güclü gənc idmançılar nəslinin formalaşmasının təzahürü idi. Daha sonra Azərbaycan 4-cü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi və dünya, islam aləmi üçün çox önəmli idman yarışmasının ölkəmizdə təşkili əks-səda doğurdu. 57 ölkəni təmsil edən idmançıların qatıldığı "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının "Həmrəylik bizim gücümüzdür" şüarı ilə keçirilməsi daha bir uğurlu səhifəni Azərbaycanın adına açdı.

Bu tədbirlərin, o cümlədən, bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının Bakı şəhərində təşkilinin ənənəvi hal alması, ölkəmizdə yüksək səviyyədə yarışların keçirilməsi Olimpiya ailəsində böyük inam yaradıb. Əlbəttə, ilk növbədə, dövlət siyasəti bu istiqamətdə çox uğurla aparılır. Bu gün Azərbaycan daha neçə-neçə yarışlara ev sahibliyi etməyə hazırlaşır. Azərbaycanın paytaxtı Bakı daha bir mötəbər idman yarışına - 2020-ci ilin Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün namizədliyini irəli sürüb.

Bu gün isə Bakıda - XV Avropa Gənclər Olimpiya Festivalı keçirilir. Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə festivalın keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, bu festivalda da ev sahibi olaraq, yüksək səviyyədə qarşılayıb, yarışı da uğurla yekunlaşdıracaq. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetirincə olmasından qaynaqlanır.

Vurğulamaq yerinə düşər ki, onlarla belə dünya miqyaslı tədbirlər, idman yarışlar təhlükəsizliyin, sabitliyin tam təmin olunduğu və əmin-amanlığın hökm sürdüyü məkanada, baş tutur və idman yarışları ölkəmizdə ədalət prinsipi ilə keçirilir. Ölkəmizdə idman tədbirlərinin yüksək səviyyədə keçirilməsi və ədalətli şəkildə baş tutmasının nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyev Ümumdünya Ədalətli Oyunlar Komissiyası tərəfindən, Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə, Avropa Ədalətli Oyunlar Komissiyası tərəfindən yüksək mükafatlara layiq görülüblər. Azərbaycan bu gün idmanın inkişafına kömək edir və idmançılarımızın dünya əhəmiyyətli yarışlarda yer almaları bu sahəyə ayrılan diqqətdir. Təbii ki, dövlət siyasəti, iradəsi Azərbaycanı uğurlara doğru aparır. Müasir dövrümüzdə, bütün sahələrdə olduğu kimi, idman sahəsində də gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya Kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmizdə mötəbər beynəlxalq idman yarışlarının keçirilməsi üçün əlverişli yerdir. Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazanılan medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək, idman sahəsindəki uğurların əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın inkişafına daha böyük töhfələr verəcək.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Ölkəmizdə həyata keçirilən islahatlar ciddi nəticələr verməkdədir



*Milli Məclisin deputatı Azər Badamovun yap.org.az-a müsahibəsi*

***- Azər müəllim, bu gün ölkəmiz bütün sahələrdə inkişafını uğurla davam etdirir. Əldə olunan nəticələri necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişafını uğurla davam etdirir. Dövlətimizin iqtisadi siyasətinin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, ölkə başçısının Fərman və sərəncamlarının icrası Azərbaycanda gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Ölkə iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas xəttini təşkil edir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev imzaladığı Fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin edib, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Bütün bunlar ölkəmizin inkişafı prosesində yüksək nəticələr verməkdədir.

***- Sizcə, qazanılan uğurların əsasında hansı faktorlar dayanır?***

- Təbii ki, bu uğurlara ölkəmizdə həyata keçirilən islahatlar sayəsində nail olunub. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və nümayiş etdirdiyi siyasi iradə nəticəsində artıq ölkəmizdə güclü iqtisadiyyat formalaşıb. Son illərdə isə aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Vergi və gömrük sahəsindəki yeniliklər, lisenziyaların verilməsinin və biznesə başlama prosedurlarının sadələşdirilməsi, yoxlamaların aradan qaldırılması, yerli istehsalın və onun ixracının dövlət tərəfindən stimullaşdırılması, "Made in Azerbaijan" brendinin dünyada tanıdılması istiqamətində atılan addımlar və sair buna əyani sübutdur.

Bu mənada iqtisadi göstəricilərin ilin ikinci yarısında da artan xətlə yüksələcəyi gözlənilən. Yeri gəlmişkən qeyd edim ki, aparılan islahatların müsbət nəticələri dünyanın nüfuzlu beynəlxalq təşkilatları və reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Fikrimi faktlarla əsaslandırmaq istərdim. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib. Bununla da MDB ölkələri arasında lider mövqeyə yüksəlib. Digər tərəfdən, "Azərbaycan 2019 - Avropa İttifaqı Biznes Mühiti Hesabatı"nda Avropa İttifaqı şirkətlərinin 74%-i cari makroiqtisadi vəziyyəti güclü və qənaətbəxş, 90%-i isə makroiqtisadi vəziyyətin perspektivlərini yaxşı və sabit kimi qiymətləndiriblər. Avropa İttifaqının builki "Azərbaycan investisiya məkanı kimi" sorğusunda isə iştirak etmiş şirkətlərin 75%-i "Azərbaycana yenidən investisiya qoyardınızmı" sualına müsbət cavab verib, ölkəmizdəki təhlükəsizliyi, siyasi və sosial sabitliyi yüksək dəyərləndiriblər.

***- Bütün bunlar göstəricilərdə özünün əksini necə tapır?***

- Bu ilin yanvar-iyun aylarında Azərbaycandan Avropa İttifaqına üzv ölkələrə 5 milyard 319 milyon 766 min ABŞ dolları dəyərində məhsul ixrac olunub. Bu göstərici 2018-ci ilin müvafiq dövrünə nisbətən 1 milyard 170 milyon 909 min dollar çoxdur. Altı ayda Avropa İttifaqı ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 1 milyard 162 milyon 292 min dollar olub.

İqtisadiyyatda müsbət makroiqtisadi göstəricilər bundan sonra da yüksələn xətlə inkişaf edəcək. Şübhəsiz, daxili tələbat və yüksək artım potensialına malik ixrac imkanlarımız növbəti illərdə yeni hədəflərə çatmaqda xüsusi rol oynayacaq. Çünki bu islahatlar yalnız bu günə deyil, həm də sabaha hesablanıb. Onu da xatırlatmaq istəyirəm ki, Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi uğurları dəyərləndirərkən bu nailiyyətlərlə kifayətlənməməyi və dayanıqlı inkişafı təmin etmək üçün daha fəal işlər görülməsinin vacibliyini söyləyib. Bu mənada, bundan sonra da ölkəmizin inkişafı, daha da güclənməsi naminə sistemli tədbirlər həyata keçiriləcək.

## Sergey Lazarev: Mən Azərbaycana "Eurovision-2019" müsabiqəsindəki dəstəyinə görə minnətdaram



Festivalın açılışı günü "Scream" mahnısını ifa edəcəyəm. Bu mənim "Eurovision-2019" yarışmasında ifa etdiyim mahnıdır. Mən Azərbaycana müsabiqədə göstərdiyi dəstəyə və verdiyi 12 xala görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. İkinci mahnım isə yenidir, onu ilk dəfə burada təqdim edəcəyəm. Bu sözləri AZƏRTAC-a müsahibəsində "Jara 2019" musiqi festivalının iştirakçılarından biri, rusiyalı müğənni Sergey Lazarev deyib. "Bakı mənim üçün dostlarımla, həmkarlarımla görüş yeridir. Bu gözəl, qonaqpərvər ölkəni ziyarət etməyim üçün çox yaxşı səbəb var ki, o da izləyiciləri görməkdir. Hələ Bakıda solo konsertim olmayıb. Buna baxmayaraq, "Jara" festivalında məni dəstəkləyən insanları görə bilirəm", -deyə ifaçı vurğulayıb.

## "Kitabxana və klubların idarə olunması ilə bağlı yeni layihə hazırlanıb"



Mədəniyyət naziri Əbülfəs Qarayev iyulun 26-da Quba rayonunda vətəndaşları qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbuldan sonra mətbuata açıqlama verən nazir vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əhəmiyyətini vurğulayıb.

Bildirilib ki, regionlarda keçirilən bu cür görüşlər vətəndaşları narahat edən məsələlərin operativ şəkildə həll olunmasına şərait yaradır: "Sevindirici hal ondan ibarətdir ki, vətəndaşlarımızın əsas müraciətləri yerlərdə mədəni xidmətlərin daha da təkmilləşdirilməsi istiqamətindədir. Məlum olduğu kimi, Quba-Qusar bölgəsi həm ölkə vətəndaşlarının, həm də xarici turistlərin ən çox üz tutduğu məkanlarımızdandır. Ona görə də mədəniyyət müəssisələri qonaqlara təqdim etdikləri mədəni xidmətləri daha da inkişaf etdirirlər. Burada yerləşən abidələrin bərpası, tarixi irsimizin təbliğ olunması ilə əlaqədar maraqlı təkliflər səsləndirildi. Ölkəmizin digər yerlərində olduğu kimi, Quba rayonunda da bir sıra tarixi abidələr bərpa olunub. Bu proses bundan sonra da davam etdiriləcək. Bütün müraciətlər nəzərdən keçiriləcək və onların həlli istiqamətində müvafiq addımlar atılacaq".

Nazir həmçinin ölkəmizin bədii təhsil müəssisələrinə müəllimlərin işə qəbulu ilə bağlı məlumat verib. Qeyd edib ki, bu yaxınlarda Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq məktəb və mərkəzlərinə 2019/2020-ci tədris ili üçün pedaqoji kadrların işə qəbulu üzrə müsabiqəyə yekun vurulub. Nəticədə 120 nəfərdən çox müəllim müvafiq təhsil ocaqlarında işə qəbul edilib. Əbülfəs Qarayev kitabxana və klubların idarə olunması istiqamətində keçirilən islahatlara toxunaraq vurğulayıb ki, bu qəbildən mədəniyyət müəssisələrinin işinin müasir tələblər səviyyəsində qurulması ilə bağlı yeni layihə hazırlanıb.

## Baş prokuror Şabran rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş prokuror Zakir Qaralov iyulun 26-da Şabran Rayon Prokurorluğunun inzibati binasında Şabran və Xaçmaz rayonlarından olan vətəndaşları qəbul edib. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Baş prokuror Zakir Qaralov və Şabran Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 13 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlərin onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb. Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

## Altı ayda elektron ticarətin həcmi 96 faiz artıb




Bu ilin yanvar-iyun aylarında Azərbaycanda elektron ticarətin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 96 faiz artıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanova deyib. O bildirib ki, yarım ildə ödəniş sistemlərinin həcmi 125 milyard manat təşkil edib. Bu dövrdə POS-terminalların sayında cüzi azalma olub. Altı ayda kart sahiblərinin sayı isə 6 milyon 700 min nəfər təşkil edib.

## Mərkəzi Bank uçot dərəcəsini azaldıb



Azərbaycan Mərkəzi Bankının (AMB) idarə heyəti uçot dərəcəsinin 8,5 faizdən 8,25 faizə endirilməsi barədə qərar qəbul edib. Bu barədə Mərkəzi Bankın sədri Elman Rüstəmov iyulun 26-da keçirdiyi mətbuat konfransında deyib. Bildirib ki, faiz dəhlizinin yuxarı həddi 10,25, aşağı həddi isə 6,25 səviyyəsində müəyyən olunub. Qərar iyulun 26-dan qüvvəyə minir.

# Yeni tərkibli Rada: Ukraynada siyasi mühit necə dəyişir?

*Şərqi Avropanın böyük dövlətlərindən olan Ukraynada növbədənkənar parlament seçkiləri mürəkkəb ictimai-siyasi şəraitdə keçib. MSK-nın rəsmi məlumatına görə, Prezident Vladimir Zelenskinin "Xalqın xidmətçisi" partiyası böyük üstünlük əldə edib. Ondan sonra isə Rusiya meyilli partiya gəlir. Milliyyətçi partiyaların son sıraları tutması da ekspertlərin marağına səbəb olub. Onlar hesab edirlər ki, Ukrayna cəmiyyətində ümumilikdə ictimai rəy dəyişir. Ancaq bunun dayanıqlı proses olub-olmadığı hələ məlum deyil. Bundan başqa, böyük geosiyasi güclərin Ukrayna siyasətində hansı yeni məqamların meydana gələ biləcəyi də əhəmiyyətlidir. Bu faktor bütövlükdə siyasi dinamikaya ciddi təsir göstərə bilər. Bütün bunlar Ukrayna daxilində siyasi mühitin dəyişməsi məsələsini aktuallaşdırır. Həmin kontekstdə Ali Radaya keçirilən seçkilərin geosiyasi nəticələri üzərində geniş dayanmağa ehtiyac gördük.*




## Qələbə: Zelenskinin qalib gəlməsi Ukraynada siyasi riski azaldırmı?

Ukraynada parlament seçkisinin nəticələrini səbirsizliklə gözləyən ekspertlər xeyli təəccübləndilər. Çünki Prezident Vladimir Zelenskinin rəhbərlik etdiyi partiyanın böyük üstünlüklə qalib gələcəyini gözləmirdilər. Nəticələr Qərb və Rusiyada eyni maraqla qarşılandı. Ekspertlər öz rəylərini ifadə edərkən bu vəziyyəti müxtəlif aspektlərdən qiymətləndirirlər. Onların gəldikləri qənaətlər də maraqlıdır. Ukraynanın dövlət kimi bundan sonrakı təkamülünü proqnozlaşdırmaq doğrudan da asan deyil.

Ən çox səsi "Xalqın xidmətçisi" (43,16 faiz) partiyası toplayıb, ikinci yerdə Viktor Medvedçukun "Həyat uğrunda - müxalifət platforması" (13,05 faiz) partiyasıdır, sonrakı yerləri Yuliya Timoşenkonun "Batkivşina" (8,18 faiz), Ukraynanın sabiq Prezidenti Petro Poroşenkonun "Avropa həmrəyliyi" (8,10 faiz) və ukraynalı müğənni Svyatoslav Vakarçukun "Səs" partiyaları (5,82 faiz) bölüşüblər. Onu vurğulayaq ki, "Müxalifət platforması" Rusiya yönlü siyasi qüvvə sayılır. Seçki öncəsi V.Medvedçuk Donbasdan 4 ukraynalı əsgəri əsirlikdən azad etdi, V.Zelenski isə ukraynalı dənizçiləri ala bilmədi.

Bundan başqa, V.Medvedçuk Donbas münaqişəsi ilə bağlı konkret təklif irəli sürüb və Kreml ona loyal yanaşır. "Müxalifət platforması" Donbası muxtar ərazi kimi tanımağı, orada azad ticarət zonası yaratmağı və özünün parlamentini formalaşdırmağı təklif edib. Məsələnin bu cür qoyuluşu Kremli qane edir, çünki Donbasın özəl ərazi olduğu etiraf edilir.

Bütün bunlara görə də, V.Medvedçukun partiyasının ikinci yerdə olması ekspertlər qarşısında yeni suallar yaradır. Belə çıxır ki, Ukrayna Radasında Rusiyaya meyilli qrup sayca digərlərindən çoxdur. Təbii ki, V.Zelenskinin partiyasını çıxmaq şərti ilə. Lakin "Xalqın xidmətçisi" daha çox yer qazandığından hökuməti formalaşdırmaq üçün koalisiyaya ehtiyac yoxdur. V.Zelenski müstəqil hökumət qura bilər.

Belə çıxır ki, V.Medvedçuk V.Zelenski ilə hakimiyyəti bölüşdürə bilməsə də, Radada aktiv müxalifətçilik edə bilər. P.Poroşenko və Y.Timoşenkonun V.Zelenskiyə dəstək verəcəyi ehtimalı azdır. Çünki korrupsiya və münaqişələrin həlli ilə bağlı yeni iqtidarın sualları çoxdur. P.Poroşenko oliqarxları hansı səbəblərdən müdafiə etdiyini izah etməlidir. Məhz bu kontekstdə V.Zelenskinin böyük səs çoxluğu ilə qalib gəlməsinin iki tərəfi vardır.

Biri ondan ibarətdir ki, V.Zelenski islahatları aparmaq üçün xeyli imkana malikdir. İndi o, prezident administrasiyasını, parlamenti və hökuməti nəzarətdə saxlaya bilir. Faktiki olaraq, parlamentdə ona müxalif qüvvə yoxdur. Bu səbəbdən hakim partiyanın qərarlarını asanlıqla Radadan keçirmək mümkün olacaq.

İkincisi, belə bir vəziyyət bütün məsuliyyəti V.Zelenskinin üzərinə qoyur. Yəni sonuc qənaətbəxş olsa, V.Zelenski xal qazanır, pis olsa, itirir. Parlamentdə olan heç bir qrup məsuliyyəti üzərinə götürməz. Deməli, əgər V.Zelenski verdiyi vədlərə əməl etməsə, onun reytinqi kəskin düşə bilər. Bu da qlobal güclərə V.Zelenski ilə oynamaq imkanı verir. Onlar öz maraqları naminə müxtəlif təsirlər edə bilərlər.

Bütün bunların fonunda ekspertlər hesab edirlər ki, Ukraynada daxili siyasi mübarizə daha da güclənəcək. Belə ki, V.Zelenski əlində olan imkanlardan istifadə edərək korrupsiya sisteminin və oliqarxların üzərinə gedəcək. Postsovet məkanının təcrübəsi göstərir ki, bu proses çox ağrılı gedir. Məsələn, Ermənistanda Nikol Paşinyan ölkədəki korrupsiyanın miqyasından dəhşətə gəlmişdi. Nəticə ondan ibarət oldu ki, Ermənistanda korrupsiya sistemi köklü dəyişikliyə uğramadı. Gürcüstanda oliqarxlar Mixeil Saakaşvilidən güclü zərbələr aldılar. Lakin bir müddət keçəndən sonra məhz onlar M.Saakaşvilini hakimiyyətdən uzaqlaşdırdılar. Hətta keçmiş prezidentə qarşı cinayət işi belə açdılar. Bu prosesin necə sonuclanacağı məlum deyil.

## İslahatlar: ziddiyyətlər və qeyri-müəyyənlik şəraitində

Ukraynadakı vəziyyətə bu faktların prizmasından nəzər salsaq, arada elə də fərqin olmadığı qənaətini alarıq. Orada da korrupsiya sistemi güclüdür və ekspertlərin fikrinə görə, müqavimət güclü olacaq. Daxili siyasi mühitin bu cür gərginləşməsi hansı nəticələri verə bilər? Burada müxtəlif ssenarilər üzərində dayanılır. Mümkündür ki, bir neçə keçmiş məmur həbs edilsin. Lakin bu dairə geniş olmaya, müəyyən addımlardan sonra proses dayandırıla bilər. Yəni eynilə Ermənistan ssenarisi təkrarlana bilər.

Digər ssenari oliqarxların əməlli-başlı savaşa başlaması ola bilər. Bu halda ölkədə sabitliyin təmini çətinləşmiş olar. Kənar qüvvələr bu vəziyyətdən istifadə edib, öz maraqları naminə siyasi böhran yarada bilərlər. Üçüncü ssenariyə görə isə V.Zelenski xarici yardımlar hesabına real islahatlar apara bilər və nəticədə yeni siyasi mühit formalaşar. Bunun fonunda isə Donbasda vəziyyətin necə olacağını proqnozlaşdırmaq çox çətin olar. Çünki Ukraynada dövlətçiliyin güclənməsini arzulamayanlar az deyil.

Bu ssenarilər onu göstərir ki, V.Zelenski Radada və hökumətdə üstünlüyü ələ alsa da, çətinliklər azalmayıb. Obrazlı deyilsə, yeni hökumət köhnə problemlərlə məşğul olmalı olacaq. Bunun nə ilə nəticələnəcəyini əvvəlcədən demək isə asan deyil. Həm də ona görə ki, böyük geosiyasi güclərin Ukrayna uğrunda mübarizəsi səngiməyib. Əksinə, bu kontekstdə vəziyyət daha da mürəkkəbləşib.

Avropa İttifaqı Ukrayna hadisələrini diqqətlə izləyir. Brüssel bütövlükdə xarici siyasətində yeni strategiya hazırlayıb. Bu strategiyada postsovet məkanı ölkələri ilə əməkdaşlıq xüsusi yer tutur. Bu da "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində aparılır. Belə çıxır ki, Brüssel Ukraynada islahatların genişlənməsinə daha çox maraq göstərməyə başlayır.

Şübhə yoxdur ki, Moskvanın da öz planları mövcuddur. Parlamentdə Rusiyaya meyilli partiyanın təmsil olunması adi hadisə deyil. Rusiya varlığını hiss etdirir. Bunun fonunda Ukraynanın şərqində siyasi proseslərin necə inkişaf edəcəyi maraqla gözlənilir. Rusiya istənilən vaxt mövcud vəziyyətə ciddi təsir edə bilər. Burada rusiyalı ekspertlərin vurğuladıqları bir məqamı da xatırlatmaq yerinə düşərdi.

Onların fikirlərinə görə, indiki parlament seçkisi göstərdi ki, Ukrayna millətçiləri böyük nüfuz sahibi deyillər. Onların hamısı Rusiya yönlü partiyadan geridə qalıblar. Belə bir vəziyyət Moskvanı tam qane edir. Ancaq bu dayanıqlı haldırmı? Yəni Ukraynada seçici rəyi qəti surətdə millətçilikdən uzaqlaşırmı? Bu sualın cavabı hələ aydın deyil.

Ukrayna cəmiyyətinin Rusiyaya loyal münasibətini təsdiq edən tutarlı fakt yoxdur. Ukraynada millətçilərin məğlubiyyəti isə müvəqqəti ola bilər. Və ya onlar yenidən qruplaşa bilərlər. Lakin bütün hallarda seçkidə milliyyətçi siyasi kəsimin zəif nəticə göstərməsi maraqlı haldır. Avropanın bir sıra ölkələrində radikal millətçiliyin getdikcə daha çox nüfuz qazandığı bir şəraitdə bu, olduqca maraqlı görünür.

Lakin ekspertlər əmindirlər ki, V.Zelenski Rusiyanın adamı deyil. Onun ətrafında da Kremlə simpatiyası olanlar yoxdur. Deməli, bütövlükdə Kiyev-Moskva xəttində ab-havanın dəyişəcəyini gözləmək doğru olmazdı. Onda belə çıxır ki, V.Zelenskinin parlamentdə qələbəsi milliyyətçilərin məğlubiyyəti olsa da, ümumi baxımdan siyasi kursda ciddi dəyişikliyin əlaməti hesab edilə bilməz. Bu variantda Ukraynada parlament seçkisinin geosiyasi dinamikaya təsiri haqqında nə demək olar?

Hər şeydən öncə, hiss olunur ki, Qərb postsovet məkanında oliqarxiya sisteminə qarşı daha kəskin mübarizə mərhələsinə qədəm qoyur. Gürcüstan və Ermənistandan sonra Moldova və Ukraynada bu prosesin işartıları özünü göstərir. Hələlik Moldovada daha çox addım atılıb. Orada kadr dəyişiklikləri edilib və idarəetmədə islahatlar aparmağa çalışırlar. Ukraynada da V.Zelenski korrupsiya və oliqarxiya sistemi ilə mübarizəyə əhəmiyyət verir. Deməli, geosiyasi olaraq Ukraynada V.Zelenskinin qələbəsi ilə Qərbin maraqları daxilində korrupsiya ilə mübarizə dalğasının genişlənməsi müşahidə edilir. Bu prosesin kimlərə fayda verəcəyini demək çətindir. Çünki mübarizənin özlüyündə məhz korrupsiyaya qarşı aparıldığına inam azdır. Bu isə Ukraynada siyasi qeyri-müəyyənliyin hələ də qaldığı deməkdir.

**Newtimes.az**

# Vizaların aradan qaldırılması...

## *Azərbaycan və Türkiyə arasında münasibətlər daha da möhkəmləndirilir*

***Azərbaycanla Türkiyə arasında vizaların qaldırılması məsələsi ölkələrimiz arasında növbəti qardaşlıq bağının möhkəmləndirilməsi olaraq qiymətləndirilir. Azərbaycan və Türkiyə ictimai rəyində bu qərarın verilməsi çox yüksək əhval-ruhiyyə ilə qarşılanıb. Mövzu ilə bağlı müsahiblərimizin də açıqlamaları rəylər maraq doğurur.***



### Millət vəkili Kamilə Əliyeva: "Türkiyə istər siyasi, istərsə də iqtisadi baxımından bizə strateji müttəfiq olan bir qardaş ölkədir"

"Söz yox ki, Türkiyə bizim qardaş dövlətimizdir. Əbəs deyil ki, tarixən Türkiyənin sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimiz olaraq qiymətləndirilib". Bu fikirləri qəzetimizə millət vəkili Kamilə Əliyeva bildirib. Onun sözlərinə görə, iki dövlət arasında daima dostluq, qardaşlıq münasibətləri olub və bu münasibətlər bu gün də ən yüksək səviyyədə davam etməkdədir: "Ümumiyyətlə, Türkiyə istər siyasi, istərsə də iqtisadi baxımından bizə strateji müttəfiq olan bir qardaş ölkədir.

Cənab Prezident İlham Əliyevin belə bir qərar qəbul etməsi yəni viza rejiminin aradan qaldırılması doğrudan da alqışlanası, təqdir olunası bir hadisədir.

"Əgər biz, Azərbaycanla Türkiyəni iki qardaş dövlət sayırıqsa, onda qardaşlar arasında hansı vizadan söhbət gedə bilərdi?" deyə qeyd edən millət vəkili həm Türkiyə, həm də Azərbaycan vətəndaşlarının vizanın qaldırılmasını dəstəklədiklərini və alqışladıqlarını deyib: "Bundan sonra da Azərbaycanla Türkiyə arasında münasibətlər daha möhkəm olacaq. Çünki Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq, müttəfiqlik elə möhkəm təməllər üzərində qurulub ki, bundan sonra daha da yüksək səviyyədə inkişaf edəcək. Türkiyə-Azərbaycan bir millət, iki dövlətdir və bu tarixi ifadələr növbəti dəfə özünü sübuta yetirdi".



### "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Viza prosedurlarının xeyli sadələşdirilməsi əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcək"

"Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə ilə münasibətlərə dair belə bir fikri var: "Biz hər zaman bir-birimizin yanında olmuşuq. Bu gün də belədir, sabah da belə olacaq". Azərbaycan yenidən müstəqilliyini əldə edəndə, onu ilk tanıyan Türkiyə dövləti oldu". Bu fikirləri "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev sözügedən mövzu ilə bağlı fikirlərini açıqlayarkən deyib. Onun sözlərinə görə, bütün beynəlxalq təşkilatlarda hər iki dövlətin nümayəndələri daim bir-birilərini dəstəkləyirlər: "Dövlətlərin qarşılıqlı dəstəyi, səmimi iş birliyi ölkələrimizin daha da güclü olmasında rol oynayır. Təbii ki, bu münasibətlər təsadüfi deyil, bizi birləşdirən ortaq tarix, mədəniyyət, etnik köklər dini birlik hazırkı siyasi və iqtisadi addımlarımızda əhəmiyyətli nəticələr əldə etməmizə təsir göstərir".

"Azərbaycanın ən çox investisiya yatırdığı ölkə Türkiyədir, ən böyük layihələrimizi onunla birgə həyata keçiririk" deyə xatırladan baş redaktor onu da bildirib ki, əlaqələrimizin gündən-günə möhkəmləndiyi belə bir şəraitdə Türkiyə ilə viza rejiminin mövcud olması sadaladığımız sıx qardaşlıq münasibətlərinə adekvat deyildi: "Odur ki, sentyabrın 1-dən Türkiyə vətəndaşları üçün viza rejiminin aradan qaldırılması respublika ictimaiyyəti tərəfindən müsbət qiymətləndirilir. Türkiyə vətəndaşlarının Azərbaycana gəlmək və burada qalmaq prosedurlarının xeyli sadələşdirilməsi əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcək".

**GÜLYANƏ**

---

## Azərbaycan qadınına səsvermə hüququ verilməsinin 100 illiyinə dair konfransın materialları Fransa Milli Assambleyasının saytında yerləşdirilib


Не защищено | www2.assemblee-nationale.fr/europe-et-international/activites-parlementaires-internationales/les-groupes-d-amitie-parlementaires#node_45103

Accueil | Vos députés | Travaux parlementaires | | Connaître l'Assemblée | Découvrir les lieux | Mon compte

Azerbaïdjan

**Colloque sur le droit des femmes**
**7 juin 2019**

Le groupe d'amitié a organisé le 7 juin 2019, à l'Assemblée nationale, à l'occasion du centenaire de l'octroi du droit de vote aux femmes en Azerbaïdjan, un colloque sur le droit des femmes en Azerbaïdjan, auquel ont notamment participé Son Exc. M. Rahman Mustafayev, ambassadeur d'Azerbaïdjan en France, Mme Hijran Huseynova, présidente du Comité d'Etat pour la famille, les droits des femmes et de l'enfant de la République d'Azerbaïdjan, Mme Latifa Aliyeva, professeure des universités à l'Université d'Etat de Bakou, Mme Sahiba Gafarova, députée azerbaïdjanaise, Mme Patricia Lalonde, députée européenne, Mme Saniye Gülser Corat, directrice de la division pour l'égalité des genres de l'UNESCO, et Mme Anne Lauvergeon, présidente directrice générale d'ALP.

On trouvera sous le présent lien les actes de ce colloque.

**Participation à un entretien de Mme Carole Bureau-Bonnard, vice-présidente, avec la présidente du Comité d'État pour la famille, les femmes et les enfants de la République d'Azerbaïdjan**
**5 juin 2019**

Le 5 juin 2019, Mme Carole Bureau-Bonnard, vice-présidente de l'Assemblée nationale, a reçu Mme Hijran Huseynova, présidente du Comté d'État pour la famille, les femmes et les enfants, en présence du président du groupe d'amitié Pierre-Alain Raphan.

Après avoir témoigné de la solidarité du peuple azerbaïdjanais envers la France après l'incendie de la cathédrale Notre-Dame de Paris et indiqué que plusieurs initiatives de participation de son pays à

Fransa Milli Assambleyasının saytında ötən ay ölkə parlamentində Azərbaycanda qadınlara səsvermə hüququ verilməsinin 100 illiyinə həsr olunmuş "Qadın hüquqları: Şərqin və Qərbin qovuşuğunda Azərbaycan nümunəsi" adlı konfransın materialları yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, saytda yerləşdirilən məlumatda konfransda Fransa Milli Assambleyasının Qadın hüquqları komitəsinin sədri Mari-Pyer Riksenin, ölkəmizin Fransadakı səfiri Rəhman Mustafayevin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın, Milli Məclisin deputatı Sahibə Qafarovanın, UNESKO-nun gender məsələləri üzrə direktoru Saniye Gülser Coratın, avropalı deputat Patrisiya Lalondun, ALP şirkətinin prezidenti Ann Loverjonun və digərlərinin çıxış etdikləri göstərilir və həmin çıxışların mətni verilir.

Qeyd edilir ki, konfransda Azərbaycan-Fransa əlaqələrinin tarixinə toxunularaq, Azərbaycan Xalq Cümhuriyyətindən, onun nailiyyətlərindən danışılıb, ölkəmizin 100 il əvvəl dinindən, cinsindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara eyni hüquqlar verən ilk dünyəvi müsəlman dövləti olduğu diqqətə çatdırılıb. Ölkəmizdə qadınların cəmiyyətin bütün sahələrində fəal olmasından, onların hüquqlarının müdafiəsi istiqamətində dövlət səviyyəsində həyata keçirilmiş tədbirlərdən, bu sahədə qəbul edilmiş qanunlardan, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlardan bəhs edilib. Qadınların məşğulluğu sahəsində, xüsusilə də qaçqın və məcburi köçkün qadınlarla bağlı həyata keçirilən layihələrdən söz açılıb, sahibkar qadınlara dövlət tərəfindən dəstək göstərildiyi vurğulanıb. Konfrans çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın Fransa Milli Assambleyasının vitse-prezidenti Karol Büro-Bonnar ilə görüşdüyü qeyd olunub.

## "Azərbaycanın strateji valyuta ehtiyatları 49 milyard dollara çatıb"



Bu ilin birinci yarısında ölkənin strateji valyuta ehtiyatları 9,4 faiz artaraq 49 milyard dollar təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib. O qeyd edib ki, valyuta ehtiyatları bu ilin əvvəlindən 4,2 milyard dollar artıb.

## "Viza tələbinin ləğvi Azərbaycan-Türkiyə əlaqələrinin sarsılmazlığından xəbər verir"



Dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri bu gün bütün dünyaya örnəkdir. Dünyada bir-birinin dövlət müstəqilliyini Azərbaycan və Türkiyə qədər dəstəkləyən, həmrəylik göstərən başqa bir nümunə tapmaq çətindir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə malik olması hər iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Azərbaycan-Türkiyə arasındakı münasibətlər, siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, humanitar, regional təhlükəsizlik, hərbi və digər sahələrdə əməkdaşlıq bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib. Bildirilib ki, Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin yüksələn xətlə inkişafı ölkələrimiz arasında viza sahəsindəki əməkdaşlıqda yeni səhifənin açılmasına, hər iki ölkə vətəndaşlarının sərbəst gediş-gəlişinin təmin edilməsinin asanlaşdırılmasına şərait yaratdı. Belə ki, 2019-cu il 1 sentyabr tarixindən etibarən Azərbaycana 30 günədək müddətə səfər etmək istəyən Türkiyə vətəndaşları üçün viza tələbi ləğv edilir. "Viza tələbinin ləğvi qərarı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə uğurla inkişaf edən qardaşlıq və dostluq münasibətlərinin məntiqi nəticəsidir", - deyə deputat vurğulayıb.

## "Sentyabrdan minimum əməkhaqqı və pensiyalar artırılacaq"



Cari ilin ötən dövründə keçən ilin müvafiq ayları ilə müqayisədə dövlət büdcəsinin daxilolmalarında artım müşahidə edilib. Bu sözləri AZƏRTAC-a İqtisadi Tədqiqatlar Mərkəzinin sədri, iqtisadçı ekspert Vüqar Bayramov deyib. O qeyd edib ki, bu ilin birinci yarısında vergi daxilolmaları üzrə dövlət büdcəsinə proqnozlaşdırılandan çox vəsait ödənilib. Onun sözlərinə görə, vergi orqanları tərəfindən dövlət büdcəsinə 240 milyon manatadək vəsait daxil olub. Bu da proqnozlaşdırılan həcmdən 8,5 faiz çoxdur. Bundan başqa, Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə daxilolmalarda artım müşahidə olunub. V.Bayramov əlavə edib ki, qeyri-neft sektorundan büdcəyə daxil olan maliyyə vəsaitinin həcmi də artıb. Bu artım iqtisadiyyatın həmin sahənin inkişafının sürətlə getdiyini göstərir. O vurğulayıb ki, vergi daxilolmalarının artması hesabına ölkə başçısı 2019-cu ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərin edilməsi üzrə sənəd imzalayıb. Yeni sənədə görə, bir sıra maddələrdə dəyişikliklər edilib. Həmin dəyişikliyə əsasən, müdafiə xərcləri 150 milyon manat artırılıb. Bu artımlar ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi ilə bağlıdır. Vüqar Bayramov bildirib ki, sentyabrdan minimum əməkhaqqı və pensiyalar artırılacaq. Bundan başqa, təhsil sektorunda əməkhaqlarının artırılması dövlətin sosial sahəyə diqqətinin göstəricidir.

# Mübariz Əhmədoğlu: “Orbeli” mərkəzi fəaliyyətinə analitika ilə deyil, demaqogiya ilə başladı”



***“Paşinyan dövründə Ermənistanda baş verən dəyişikliklərdən biri də analitika sahəsində baş verdi”. Bu fikirləri Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu bildirib.***

M.Əhmədoğlu onu da vurğulayıb ki, Ermənistanın hakimiyyət strukturlarını analitik materiallarla təmin edən “Noravank” fondu ləğv edildi və “Orbeli” mərkəzi yaradıldı: “Mərkəzin yaradılmasında Ermənistanın Baş naziri və prezidenti ilə yanaşı, bir sıra digər xarici ekspertlər də iştirak etdi. Üstündən 3 ay keçdikdən sonra “Orbeli” mərkəzi publik fəaliyyətə başladı və onun ilk tədbiri Dağlıq Qarabağ mövzusu oldu. Dağlıq Qarabağ məsələsində Ermənistanın müdafiə və xarici işlər nazirlərinin mətbuat xidmətlərini çağırıb, onlarla dinləmə keçirdi. Köhnə, imitasiyaya şərait yaradan tezislər analitika qılafında təqdim edildi. Dağlıq Qarabağ mövzusu Ermənistanın problemlərinin mənşəyi kimi araşdırılmadı”.

Politoloqun sözlərinə görə, “Orbeli” analitik mərkəzinin ilk fəaliyyətində Dağlıq Qarabağ məsələsini ön plana çıxarması bu mərkəzin analitik mərkəz olmadığını göstərir: “Ermənistanın qabağında hal-hazırda çox böyük problemlər var: sosial-iqtisadi problemlər, N.Paşinyanın verdiyi vədlərin yerinə yetirə bilməməsinin törətdiyi nəticələr, Ermənistana investisiya cəlbi və s. Mühüm göstəricilərdən biri də “erməni soyqırımı”nın tanınması ətrafında baş verənlərdir. Son dövrlərdə “erməni soyqırımı”nın tanınmasında heç bir ciddi uğur əldə olunmayıb, əksinə, reqressiya müşahidə olunub. Bəlli olur ki, hətta vaxtilə “erməni soyqırımı” ilə məşğul olan struktur və yaxud qurumlarda indi hal-hazırda mövqelərindən geri çəkilirlər. Bəzi dövlətlər açıq şəkildə bəyan edirlər ki, “erməni soyqırımı”nın tanınmasını müzakirə etməyəcəklər. Belə uğursuzluq fonunda, Dağlıq Qarabağ məsələsini aktuallaşdırmaq, hər halda normal düşüncənin təsiri deyil. Ermənilərin 2 ümummilli məsələsi - “erməni soyqırımı”nın və Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına xarici dövlətlərin münasibəti fərqlidir. Hətta bəzi dövlətlər Türkiyənin acığına “erməni soyqırımı”na dəstək verdikləri halda, Dağlıq Qarabağın tanınması məsələsində Ermənistanın yanında deyillər. Fransa, Yunanıstan, Kipr, Serbiya, Rumıniya və Bolqarıstan “erməni soyqırımı”nın tanınmasında Ermənistana hər cür dəstək veriblər. Amma bu dövlətlərin Dağlıq Qarabağ məsələsindəki mövqeyi Ermənistandan daha çox obyektivliyə, başqa sözlə, Azərbaycanın mövqeyinə yaxındır”.

**R.HÜSEYNOVA**

# Gömrük nəzarətinə bəyan edilməyən mobil telefonlar və aksesuarları aşkarlanıb

Gömrük nəzarətinə bəyan edilməyən mobil telefonlar və aksesuarları aşkar olunub. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında, “Qırmızı Körpü” gömrük postunda Gürcüstandan gələn, Azərbaycan vətəndaşının idarə etdiyi “Hyundai Sonata” markalı avtomobil saxlanılıb və sürücüsü şifahi sorğu-sual edilib. Vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirsə də, yoxlama zamanı avtomobilin gizli saxlanc yerlərindən 4 ədəd “Redmi Note 7”, 1 ədəd “MI 8 lite”, 1 ədəd “Samsung Galaxy A50”, 1 ədəd “Samsung Galaxy A30”, 2 ədəd “Samsung Galaxy A20” markalı mobil telefon, 5 ədəd “qulaqlıq”, mobil telefon üçün 11 ədəd qutu, 8 ədəd USB kabel və qidalandırıcı başlığı aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Kolleclərə qəbul olmaq üçün 5 mindən çox abituriyent ixtisas seçimi edib



Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisas seçimi davam edir. İyulun 26-sı saat 13:15-ə olan məlumata görə, 5378 (Azərbaycan bölməsi üzrə 5261; rus bölməsi-117) abituriyent ixtisas seçimi edib. Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildirilib ki, ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisas seçimi avqustun 5-i saat 23:59-dək internet vasitəsilə həyata keçirilir.

İxtisas seçiminə qəbul (buraxılış) imtahanında (hər iki mərhələ üzrə) ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılırlar. Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsində fənlər üzrə bal məhdudiyyəti tətbiq olunmur. Həmin ixtisasları yalnız müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından məqbul alan abituriyentlər seçə bilərlər. Abituriyentlərin qabiliyyət imtahanlarından aldığı qiymətlər gün ərzində elektron məlumat bazasına daxil edilir və onlar günün sonunda ixtisas seçimi edə bilərlər. Abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçə bilərlər.

Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət hesabına və ödənişli əsaslarla 12-dək ixtisas kodunu seçə bilər. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirir. Müsabiqə zamanı abituriyentin yerləşdirilməsi onun seçdiyi ixtisasların ardıcıllığı nəzərə alınmaqla qəbul planı çərçivəsində həyata keçirilir və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

# Ermənistan ordusunun acınacaqlı halı göz önündədir

*Larisa Alaverdyan: “Hərbi qulluqçunun ölümü ilə nəticələnən faciələr aysberqin ən yüksək zirvəsidir”*

***Ermənistan silahlı qüvvələrində baş verən “dedovşina” hallarının qarşısı alınmayıb və bunu ölkənin birinci Ombudsmanı olan Larisa Alaverdyan da təsdiq edir. Belə ki, son günlər ordu daxilində baş verən qətl və ölüm halları da, belə deməyə zəmin yaradır ki, hətta “məxməri inqilab” deyilən siyasi şoudan sonra, baş nazir postuna yiyələnmiş Nikol Paşinyan sözügedən məsələdə acizdir və ordu daxilində davam edən qanunsuzluqların qarşısını ala bilmir.***



### “Ordu çox incə orqanizmdir və hərbçilər arasında şəxslərarası münasibətlərdə kök salmış qanundankənar hərəkətlər, silahlı qüvvələrin psixoloji cəhətdən yaxşılaşmasına xidmət edə bilməz”

“News.am”ın verdiyi xəbərə görə, “Hüquqi qanunsuzluqlara qarşı” ictimai təşkilatın sədri, sabiq Ombudsman L.Alaverdyanın sözlərinə görə, Ermənistan hakimiyyəti silahlı qüvvələrdə yaranmış və hərbi xidmətə heç bir aidiyyatı olmayan qanunsuz əməllərə qarşı ciddi iş aparmalıdır. Əks halda, ordu daxildən böhranlı vəziyyətə düşə bilər. “Ordu çox incə orqanizmdir və hərbçilər arasında şəxslərarası münasibətlərdə kök salmış qanundan kənar hərəkətlər, silahlı qüvvələrin psixoloji cəhətdən yaxşılaşmasına xidmət edə bilməz” deyən Alaverdyan hesab edir ki, işlər də, məhz bu istiqamətdə aparılmalıdır. SİTAT: “Baxmayaraq ki, beynəlxalq ekspertlər Ermənistan silahlı qüvvələrində insidentlərin cüzi azaldığını deyirlər, lakin bununla kifayətlənmək olmaz, hər bir həyat bizim üçün qızıla bərabərdir”.

Hüquq müdafiəçisi ictimai rəyin də hərbi xidmət yerlərində baş verən qanunsuzluqlara qarşı sərt münasibət bildirməli olduğunu deyib. “Hərbi qulluqçunun ölümü ilə nəticələnən faciələr aysberqin ən yüksək zirvəsidir”, deyən erməni hüquq müdafiəçisi qeyd edib ki, bu məsələ digər bənzər halların da baş verməsinə zəmin yaradır: “Ona görə də, hər bir hadisə sübut edir ki, sistemdə problem var”.

### Ölüm hadisəsindən sonra Valodya Qaloyanın qətlə yetirmək istədiyi, lakin nail olmadığı starşina saxlanılıb və onun sıravi əsgərdən qisas aldığı qeyd olunub

Yeri gəlmişkən, xatırladaq ki, iyulun 23-də, Ermənistanın ön xəttə yerləşən “N” saylı hərbi hissəsində, saat 22:55 radələrində həqiqi hərbi xidmətdə olan sıravi Volodya Qaloyan hərbi hissənin starşinasını AK-74 avtomat silahı ilə qətlə yetirməyə cəhd edib. O, qarşı tərəfə atəş açsa da, güllə hədəfə dəyməyib. Bundan sonra isə, Qaloyan silahı götürərək, ön xətdəki mövqeyini tərk edib. Artıq iyulun 24-də onun cansız bədəni saat 04:20 radələrində hərbi hissənin müşahidə nöqtəsindən 50 metr aralıda tapılıb. Onun başından güllə yarası alaraq öldüyü bildirilir. Ölüm hadisəsindən sonra Valodya Qaloyanın qətlə yetirmək istədiyi, lakin nail olmadığı starşina saxlanılıb və onun sıravi əsgərdən qisas aldığı qeyd olunub.

Bu kimi hadisələr isə, artıq davamlı xarakter alıb və Ermənistan ordusunun hansı vəziyyətdə olduğunu kifayət qədər sübuta yetirir.

### “Global Firepower” təşkilatına görə, Ermənistan ordusu 12 pillə geriləyərək, 96-cı yerdə qərarlaşıb, Azərbaycan Ordusu isə, irəliləyərək, 52-ci yerə çıxıb!

Yeri gəlmişkən, daha bir faktı da xatırlamaq olar. Belə ki, “Global Firepower” təşkilatı 2019-cu ilin ən güclü ordularının siyahısını açıqlayıb. Sorğunun nəticəsinə görə, Azərbaycan Ordusu siyahıda ötən illə müqayisədə, bir pillə irəliləyərək, 137 ölkə arasında 52-ci yerə yüksəlib. Cənubi Qafqaz ordularından Gürcüstan 85-ci, Ermənistan yeni reytinqdə 12 pillə geriləyərək, 96-cı yerdə qərarlaşıb. Bu reallıq da, sübut edir ki, işğalçı Ermənistanın silahlı qüvvələri heç bir halda irəliləyə bilmir və hər il bu məsələdə geriləyir. Yəni görünən budur ki, erməni silahlı qüvvələrinin zəifləməsi həm də ordu daxilindəki qanunsuzluqlar və psixiki böhranın məntiqi nəticəsidir.

**Rövşən NURƏDDİNOĞLU**

# Ermənistanda “bumeranq” effekti



Paşinyan inqilabından sonra Ermənistanda yalnız siyasi hakimiyyət dəyişib və dövlət sistemi, xüsusən də cinayət-prosesual sfera eyni qalıb. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus 1in.am saytında yazı dərc olunub. Yazıda nəzərə çatdırılır ki, Nikol Paşinyan komandasının məsuliyyətsiz davranışlarına görə nəinki məhkəmələr, eyni zamanda prokurorluq və istintaq orqanları da islahat aparmayıblar. Xüsusilə qeyd olunur ki, Robert Koçaryan bu gün asayiş keşikçilərinin qanunsuzluqlarından şikayət edərkən, özü tərəfindən yaradılan bu sistemi, bu qanunsuzluqları könülsüz qiymətləndirir. Çünki hüquq-mühafizə orqanları və ədliyyə sistemini repressiya vəziyyətinə düşürən elə özü olub və arzu etmədiyi bu vəziyyət ikinci prezidentin hakimiyyəti illərində yaradılıb. Bir sözlə, Köçəryan yaratdığı sistemin girovuna çevrilib.

**İnam Hacıyev**

# Gültəkin Hacıbəyli - yalançı illüziyalarla haraya qədər?..

## Və yaxud sosial şəbəkələrin troll "madonnası"



***Bu gün radikal müxalifət düşərgədə olanlar bütün mənəvi-əxlaqi sədləri aşaraq, Azərbaycanın uğurlarından qaşınmaya düşüblər. Xüsusilə də, özünü "Milli Şura"nın əzəli və əbədi, "cəfakeş" üzvü, adlandıran, müxalifətçi libası altında siyasi meydanda əsl çılpaqlıq nümayiş etdirən Gültəkin Hacıbəyli yenə də yuyulmamış çömçə kimi ortaya düşüb. Bu, nə birinci dəfədir, nə də sonuncu. Hər dəfə ölkəmizdə mühüm beynəlxalq yarış və ya tədbir keçiriləndə, sosial şəbəkələrin troll "madonnası" yenə də aktivləşir.***

Çünki ümumiyyətlə, bu yarışlar, bu cür beynəlxalq tədbirlər daim xalqımızın adına, dövlətimizin adına müsbət imic gətirib. Belə yarışları sabitliyi, inkişafı, iqtisadi qüdrəti olmayan heç bir dövlətə etibar etməzlər. Bu, böyük risk olardı. Amma ayrı-ayrı beynəlxalq təşkilatların, super dövlətlərin etimad göstərdiyi Azərbaycan hakimiyyətinin uğurlu iqtisadi-siyasi xətti hələ də tarixin qaranlıq küncünə atılmış ənənəvi müxalifət nümayəndələri üçün qısqanclıqla qarşılanır. Elə "iaşə müxalifəti" üçün də...

Bəs müxalifətin seçdiyi bu yolun sonu varmı? Onların xaricdən aldığı sifarişlər əsasında qarayaxma kampaniyalarına nə ad verməK olar axı? Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli və onun "troll madonnası" G.Hacıbəyli nə qədər böhtan və yalanlar söyləyəcək?

Necə olur ki, 2010-cu ilə qədər deputat kürsüsündə oturan, daha sonra seçicilərinin "yox" dediyi bu qadın 2009-cu ildə Milli Məclisin plenar iclasındakı çıxışı zamanı deyirdi: "Azərbaycan demokratiya yolunda addımlarını atan bir ölkə kimi, sözsüz ki, insan haqları sahəsində də inkişaf edir. Azərbaycanda insan haqları sahəsində spekulyasiyalar da var. Məhz bu spekulyasiyalar nəticəsində, bəzən biz terrorçuların, casusların cəmiyyətə siyasi məhbus kimi təqdim edilməsi, sırınması niyyətlərini görürük" deyirdi, bəs indi nə dəyişdi?

### Gültəkin Hacıbəyli: "Məndən müxalifətçi düzəltmək cəhdləri əbəsdir!"

Elə bu yerdə, 2009-cu ildə keçirilən referendum zamanı İTV-də keçirilən debatda Hüquq və Demokratiya Təşviqat Qrupunun vəkili olan G.Hacıbəyli ilə İ.Qəmbər arasında baş verən insident də yaddaşlardan heç də silinməyib. Yuxarıda təqdim etdiyim çıxışı zamanı G.Hacıbəyli "terrorçuları və casusları cəmiyyətə siyasi məhbus kimi sırıyanlar" deyəndə də, AXCP sədri Ə.Kərimlini və Müsavat başqanını nəzərdə tuturdu. Bu 6-7 ildə nə dəyişdi ki? Və necə "müxalifətçi" oldu?

Deputat olduğu müddətdə ölkə Prezidentimizin apardığı siyasəti təbliğ edərkən, çıxışına "Əziz yeni azərbaycanlılar" müraciəti ilə başlayardı. SİTAT: "Əziz yeni azərbaycanlılar, əziz İlhamsevərlər! Xoş gördük sizləri..." deyən G.Hacıbəyli dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkindir. İki gün öncə, G.Hacıbəyli "Facebook"da yazır: "Azərbaycan silahlanmaya 23 milyard dollar pul xərcləyibmiş! Hanı o silahlar?" Bu, həmin Gültəkindir ki, deputatlıq dövründə mətbauta açıqlamalarında Azərbaycanın hərbi gücündən, əldə etdiyi ən modern silahlardan danışırdı. İndi bu silahlar Gültəkinin nəyinə lazımdır? Bax, bu, maraqlıdır.

Doğrudan da, adamın yazığı gəlir buna. İnsanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, F.Qəhrəmanlının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil. Ancaq qadının bu kökə düşməsi dəhşətdir.

Son olaraq, qeyd etmək istəyirəm ki, G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - NANKORLUQ!

**Rəfiqə HÜSEYNOVA**

# Bakcell şəbəkəsinin əhatə dairəsi sürətlə artmaqda davam edir




***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkətinin yüksək keyfiyyətli mobil şəbəkəsinin əhatə dairəsi sürətlə artır.***

Belə ki, istifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq təkcə 2019-cu il ərzində Bakcell tərəfindən ölkə ərazisində 700-ə yaxın yeni baza stansiya quraşdırılıb.

Xatırladaq ki, 2300-dən artıq 4G texnologiyalı baza stansiyası sayəsində Bakcell şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük 4G şəbəkəsinə malikdir. Bunun sayəsində Bakcell şirkəti ölkənin bütün bölgə mərkəzlərində yüksək keyfiyyətli və ən sürətli 4G İnternet xidmətlərini təqdim edir. Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan Bakcell abunəçiləri şirkətin təqdim etdiyi yüksək sürətli mobil İnternet xidmətlərindən yararlanmaq imkanına malikdirlər. Hazırda "Bakcell"in 4G şəbəkəsi əhalinin 78%, ölkə ərazisinin isə 52%ni əhatə edir.

"Bakcell"in təmin etdiyi keyfiyyət və ən yüksək mobil İnternet sürətinə hətta beynəlxalq səviyyədə belə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə Bakcell "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat şirkətə "Speedtest" xidmətinə görə bütün dünyada tanınan "Ookla" şirkəti tərəfindən təqdim edilib. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

Həmçinin qeyd edək ki, 2019-cu il ərzində Bakcell şirkəti ölkəmizdə keçirilmiş Novruz festivalı, Formula 1 Azərbaycan Qran Prisi, UEFA Avropa liqasının Final oyunu, Avropa Gənclər Yay Olimpiya Festivalı və digər əhəmiyyətli tədbirlər zamanı ən yüksək keyfiyyətli rabitəni təmin edib. Müştərilərə göstərilən xidmət keyfiyyətinin daha da təkmilləşdirilməsi məqsədilə Bakcell bundan sonra da ölkənin ən üstün mobil şəbəkəsinin genişləndirilməsi və modernizasiyasına yönəlmiş iri-miqyaslı tədbirləri davam etdirəcək.

# YAP Tovuz rayon təşkilatı ötən 26 ildə uğurlu yol keçib





Dünən Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatının yaranmasının 26 illiyi ilə bağlı rayon təşkilatı tədbir keçirib.

YAP Tovuz rayon təşkilatının sədri Məzahir Bayramov partiya üzvlərini yubiley münasibətilə təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzulayıb. M.Bayramov YAP ideyasının respublikanın çox gərgin bir dövrdə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən yaradılmış tarixi bir partiya olduğunu bildirib: "Ümummilli Lider Heydər Əliyev ideyaları ilə silahlanmış Yeni Azərbaycan Partiyası həmişə və bu gün də Möhtərəm Prezident, partiyamızın Sədri İlham Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasəti uğurla həyata keçirir, doğma Azərbaycanımızın dünya dövlətləri içərisində tutduğu layiqli mövqeyinin möhkəmləndirilməsi yolunda yorulmaz fəaliyyədədir".

Tədbirdə YAP Tovuz rayon təşkilatının idarə heyyətinin üzvü Fərman Qurbanov, gənclər birliyinin sədri Nihad Pənahov və başqaları çıxış edərək, Ulu Öndər Heydər Əliyev kimi böyük şəxsiyyətin qurucusu olduğu partiyanın daim uğurlar qazandığını vurğulayıblar. Bildiriblər ki, YAP Cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün bölgəmizin ən qüdrətli siyasi qüvvəsidir: "Partiyamızın qüdrəti güclü ideologiyaya və güclü liderə malik olmasındadır".

Sonra rayon təşkilatının və ərazi ilk partiya təşkilatlarının üzvləri rayon təşkilatının yaranmasında fəallıq nümayiş etdirən partiya üzvləri ilə görüşmüş, partiya həyatında xidmətləri olanları Fəxri Fərman və qiymətli hədiyyələrlə təltif ediblər.

**Rəfiqə HÜSEYNOVA**

# Mühacir bazarının baş dəllalı kimdir?

## Və ya müxalifət bu barədə nə düşünür?

***Zaman-zaman AXCP sədri Əli Kərimlinin təsiri altında baş tutan "Milli Şura"nın mitinqlərinin bir sıra maraqlarla yanaşı, mühacir biznesinə də xidmət etdiyi kimsəyə sirr deyil. Məhz şəxsi mənfəətlərini artırmaqdan ötrü xarici ölkələrə köç etmək istəyənlərin arzularını reallaşdıracağını vəd edən Ə.Kərimli həmin insanlar qarşısında bir şərt qoyur - gəl mitinqə, şəkil çəkdir, polislə mübahisə et, təxribatçı hallara rəvac ver və Şengen vizası cibindədir!***



### Əli Kərimli isə bu bazarın bazarkomu rolunda, daha dəqiq desək baş dəllalı qismində çıxış edir

Beləliklə, ilk nəzərə çarpan amil budur ki, uzağı 1000-1200 nəfərin yığışdığı və aksiyanın keçirildiyi məkanın dolmadığı bir yerdə istər Ə.Kərimlinin, istərsə də yan-yörəsindəki adamların hakimiyyətə qarşı etdikləri çıxışları arxasında dayanan əsas məsələ mühacir biznesində daha çox sifarişçi əldə edib, onlardan maddi gəlir götürməkdir. Yəni "Milli Şura"nın mitinqləri siyasi deyil, bazar məqsədi güdür. Ə.Kərimli isə, bu bazarın bazarkomu rolunda, daha dəqiq desək, baş dəllalı çıxış edir və onu da qeyd etmək yerinə düşərdi ki, bu kimi faktları yalnız ictimai-siyasi hadisələri izləyərək, onları təhlil edən jurnalistlər deyil, elə müxalifət partiyalarına sədrlik edən şəxslər də deyirlər.

### MDHP sədri Fərəc Quliyev: "Dəfələrlə göstərilib ki, konkret hansı partiya sədrləri nə qədər pulun müqabilində saxta üzvlük vəsiqələri düzəldir, saxta arayışlar verirlər..."

Misal üçün, Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri, deputat Fərəc Quliyev sözügedən məsələ ilə bağlı mətbuata açıqlamasında deyib ki, əslində, mühacir biznesi vasitəsilə maddi gəlir əldə edən radikal müxalifət partiyalarının sədrləri bir çox hallarda insanları aldatmaqla da məşğuldurlar. Daha doğrusu, ortada dələduzluq faktları da var.

"Bir insan mitinqə gəlib şəkil çəkdirməklə xaricə gedə bilməz" deyə qeyd edən MDHP sədri, sözlərinə əlavə deyib ki, ora (hər hansı Qərb ölkəsinə-red.) gedənləri kamplarda yerləşdirəndə, hansı təşkilata üzv olmaları barədə arayışlar və ya onların biletləri istənilir: "İndiyə qədər dəfələrlə mətbuatda göstərilib ki, konkret hansı partiya sədrləri nə qədər pulun müqabilində saxta üzvlük vəsiqələri düzəldir və saxta arayışlar verirlər..."

Müxalifətçi deputata görə, məlum partiya sədrləri var ki, hansı işlərlə məşğul olduqları göz önündədir. O cümlədən, belə insanların getmələrinə saxta yollarla şəraitlər yaradan və özlərini müxalifətin "lideri" adlandıran kəslər bu işdə əsas günahkar hesab edilməlidirlər: "Mitinqlər də məqsədli şəkildə keçirilir. Orada bir müddət iştirak edib, sonradan ölkəni tərk edib, xaricdə ölkəmiz əleyhinə fəaliyyət göstərənlər var. Onlar milli maraqlarını və dövlətini yaxşı bir həyata dəyişməkdə maraqlıdırlar".

### "Onları ifşa etmək mümkündürsə, buna laqeyd yanaşmaq doğru deyil"

"Azərbaycan mübarizə aparan bir ölkədir" deyən F.Quliyev fikirlərinə əlavə olaraq, xatırladıb ki, Aprel Müharibəsi vaxtı kənardan çoxsaylı insanlarımız, hətta təhsillərini yarımçıq qoyub döyüşmək üçün gələnlər oldu. Bu baxımdan, ölkənin imicinə xaricdən zərbə vuranlar qədər onların gedişinə şərait yaradanlar günahkardır: "O şəraiti də partiya sədrləri saxta arayışlar verməklə yaradırlar. Bunu artıq sistem halına salıblar. Onları ifşa etmək mümkündürsə, buna laqeyd yanaşmaq doğru deyil. Belə olanda, digərlərinin əl-ayaqları açılır. Hesab edirəm ki, Baş Prokurorluq da daxil olmaqla, hüquq-mühafizə orqanları bu məsələlərdə yarımçıq iş görməli deyillər. Belə şəxslər mütləq cəzalandırılmalıdırlar. Hətta xaricə gedib, özlərini erməni kimi təqdim etməkdən çəkinməyənlər də var. Belə faktlar da var. "Hansısa bir ölkə bizi qınayar" kimi məsələ ortaya qoymaq lazım deyil. Prinsipial mövqe nümayiş etdirmək lazımdır. Ölkənin maraqlarından üstünü yoxdur. Hüquq-mühafizə orqanlarının bundan sonra bu məsələlərin üstündə ciddi şəkildə durmağının tərəfdarıyam".

Göründüyü kimi, MDHP sədri, deputat F.Quliyev ortada konkret ad çəkməsə də, fakt budur ki, mühacir biznesi ilə məşğul olan AXCP sədri Ə.Kərimli və sairləri, bilavasitə cinayət əməlinə yol vermiş olurlar və bunun qarşısını almaq, artıq bir zərurətə çevrilib.

### "Ağ partiya" sədri Tural Abbaslı: "Belə halların qarşısı alınmalı və insan taleləri ilə alver edən istər siyasi, istərsə də ictimai xadimlər cəzalandırılmalıdırlar"

Onu da qeyd edək ki, ortada konkret cinayət halının olmasını yalnız MDHP sədri F.Quliyev deyil, eyni zamanda, digər müxalifətçi partiya sədrləri də etiraf edirlər. Misal üçün, sabiq müsavatçı funksioner, "Ağ partiya" sədri, Tural Abbaslı da belə düşünür ki, saxta yollarla mühacirətə gedənlərin əsas yardımçıları radikal düşərgənin "liderləridir".

"Artıq heç kəsə sirr deyil ki, mühacirətə saxta yolla gedən bir çoxları getdikləri dövlətlərin aidiyyəti qurumlarına rəsmi sənədlər təqdim edirlər" deyən T.Abbaslıya görə, adətən, bu sənədlər saxta və pul qarşılığında əldə edilmiş sənədlər olur: "Belə halların qarşısı alınmalı və insan taleləri ilə alver edən istər siyasi, istərsə də ictimai xadimlər cəzalandırılmalıdırlar".

Nəticə olaraq isə, belə qənaətə gəlmək olar ki, bu gün AXCP sədri Ə.Kərimli "Milli Şura"nın adı altında maddi maraqlarını sözügedən biznesini inkişaf etdirirsə, bu faktın özü, hüquqi olaraq, qiymətləndirilməlidir. Əks-halda, bu bazarın bazarkomu, yaxud baş dəllalı öz biznes şəbəkəsini daha da genişləndirib, böyük cinayətlərə əl ata bilər. Xüsusilə, Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzu artıqca, Ə.Kərimlinin iştahası izafi şəkildə çoxalır. Ona görə də, mühacir bazarının bazarkomunun və baş dəllalının həmin iştahasını vaxtında kəsmək lazımdır...

**Rövşən RƏSULOV**

# İstefalar radikal müxalifətin eyni mövqeyini sübut edir

## Gedənlər Azərbaycan cəmiyyətinin maraqlarını partiya maraqlarından daha üstün və faydalı olduğunu bəyan edirlər

Kifayət qədər bəllidir ki, özlərini "ana müxalifət" kimi zorla ictimai rəyə sırımağa cəhd göstərən AXCP və Müsavat partiyaları tutduqları radikallıq, dağıdıcılıq, xəyanətkar mövqelərindən geri çəkilmədikcə, zaman-zaman öz tərəfdarlarını da itirirlər. Məsələn, buna misal kimi, Müsavatın bir neçə il öncə, keçirdiyi saxta qurultayının ardınca, baş verən istefaları, həmçinin, AXCP-nin də qurultayından sonra Ə.Kərimlinin yenidən sədr seçilərək, partiyadaxili opponentlərinə qarşı başlatdığı hücumları göstərmək mümkündür. Məhz həmin ərəfələrdə canlarını partiyaya xidmətdə qoyan bir çox tanınmış müsavatçılar və axecepeçilər, hətta təmsil olunduqları təşkilatlarda vəzifə tutsalar belə, kütləvi şəkildə istefalara getdilər.



Bu arada, Müsavatın sabiq başqanı İsa Qəmbərin müşaviri olmuş Yeganə Hacıyevanın və s. müsavatçı səlahiyyətlilərin bəyanatları da qeyd olunanları ehtiva edir. Misal üçün, Y.Hacıyeva bəyanatında siyasi hadisələri analiz etdiyini və bir məqamda, obyektivliyi partiya maraqları naminə görməmək seçimi ilə üz-üzə qaldığını bildirmişdi. O, partiya rəhbərliyinin öz maraqları naminə, ölkənin və xalqın maraqlarını tapdaladığını iddia etmişdi. Sözügedən qalmaqallı bəyanatı bir daha xatırlayaq: "Azərbaycan cəmiyyətinin maraqları partiya maraqlarından daha üstün və faydalıdır".

### İsa Qəmbərin sabiq müşaviri Yeganə Hacıyeva: "Müsavat partiyası ölkədə baş verən proseslərə obyektiv deyil, müəyyən maraqlar nöqteyi-nəzərindən yanaşır"

Maraqlısı da budur ki, baş verən ardıcıl istefalardan sonra da, partiya rəhbərliyinə qarşı ittihamlar bu gün də səngimir. Daha doğrusu, bu gün müsavatçılara Arif Hacılı başqanlıq edir və yenə də partiyada İ.Qəmbər avtoritarçılığı, necə deyərlər, "meydan sulayır". Y.Hacıyeva növbəti dəfə bildirib ki, Müsavat partiyası ölkədə baş verən proseslərə obyektiv deyil, müəyyən maraqlar nöqteyi-nəzərindən yanaşır. Bu səbəbdən də, partiyada təmsil olunan şəxslər ədalətli yanaşma hissindən kənarda qalmalı olurlar.

Onu da qeyd edək ki, istər Müsavatdan, istərsə də AXCP-dən olan istefalara müxalifətin digər cinahında olan partiyalar da münasibət bildirərək, istefa verənlərin tamamilə haqlı mövqedə olduqlarını deyirlər.

### Ədalət partiyası rəsmisi: "AXCP və Müsavatın apardığı siyasət ona gətirib çıxarır ki, insanlar əziyyət çəkirlər"

Məsələn, Ədalət partiyasının sədr müavini Mütəllim Rəhimli hesab edir ki, insanların bəyanat verərək, AXCP və Müsavat kimi partiyalardan istefa verməsi normal haldır. Çünki onlar illər boyu apardıqları mübarizənin yanlış istiqamətdə həyata keçirildiyini anlayırlar və daha çox əziyyət çəkməmək üçün partiya sıralarını tərk edirlər. SİTAT: "İnsanlar uzun müddətdir ki, bu iki partiyanın arxasınca gedirlər və onlar da sanki müxalif düşərgəni inhisara alıblar. Hesab edirlər ki, yalnız bu iki partiya müxalifətdir, müxalif düşərgədə başqa partiya yoxdur. Bunların apardıqları siyasət, ona gətirib çıxarır ki, insanlar əziyyət çəkirlər, amma bu düşərgənin apardığı mübarizədə, bir addım da olsa, irəliləyiş yoxdur. Ona görə də, insanlar bezirlər, perspektiv görmədikləri və gələcəklərini görmədikləri yerdən uzaqlaşırlar" deyə o, əlavə edib.

Ədalət rəsmisi, həmçinin, hesab edir ki, 90-cı illərdə aparılan mübarizə ilə bugünkü mübarizə tamamilə fərqlənməlidir.

Beləliklə, biz həm də belə qənaətə gələ bilərik ki, bu gün müxalifətin küçə müxalifəti sindromundan çıxması lazımdır, ancaq dağıdıcılar bununla bacara bilmirlər. Toplantılarını çayxana və kafelərdə keçirən görüşlərdə, radikallar bu vasitə ilə öz ətraflarını daha da itirir, bununla da, siyasi ölümlərinə özləri tərəfindən imza atmış olurlar.

**R.RƏSULOV**

# Satqın üçün hər şey - satılıq maldır

## Boris Akunin: "Ən böyük şər oğurluq, hətta qətl də deyil, satqınlıqdır"

***Bu, həqiqətən də, belədir. Özü də bu satqınlar kimlərdir? Əxlaqsızlar, mənəviyyatsızlar. Dövlətçilik maraqlarımızı satanlara nə ad verək olar? Əlbəttə ki, əxlaqsız, mənəviyyatsız. Ömər Xəyyama görə, ''İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar''. Səbəb? Aydındır. "Satqın zehniyyəti nədən qaynaqlanır? Əlbəttə, maliyyə-pul arqumenti. Satqın yalnız məntiqləmi düşünür?" suallarına mütləq olmasa da, elmi cavablar var. Alınan nəticələr göstərir ki, sən demə, işin kökü yalnız acgözlük və pul deyil. Kimsə, doğrudan da, varlanmaq üçün, xəyanətinə əvəz olaraq pula satılır. Çünki satqın üçün hər şey - satılıq maldır.***



### Xəyanətkarın ağı-qarası olmur

Sirr deyil ki, bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan satılıb-satılan baltalar "siyasi mühacir" adı altında çörəyini yeyib, suyunu içdikləri vətənlərinə qarşı antitəbliğat kampaniyası aparmaqla, erməni lobbisi tərəfindən lazımi maliyyələr alırlar. Erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar - Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir və digər bu kimi parazitlər həyasızcasına çirkin əməllərindən hələ də əl çəkmirlər.

Deyir xəyanətkarın ağı-qarası olmur. Həm də, o da deyilir ki, haqq nazilər, amma üzülməz. Və bu gün bu kimi siyasət rüşeymləri hələ də sosial şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirməklə, erməni sevgilərini nümayiş etdirməkdədirlər. Ancaq bu parazitlər anlamırlar ki, "sirkə nə qədər tünd olsa, öz qabını çatladacaq". Çünki Avropa ölkələrinə sığınan və son vaxtlaradək trivial videobloqerliklə, bir də məzmunsuz və proqramsız "müxalifətçi"liklə məşğul olan "virtual inqilabçı"lar "siyasi mühacirlər" olublar.

"Kif atmış təfəkkürlü "siyasi mühacirlər", o cümlədən, əxlaqsızlıq, tərbiyəsizlik simvolu olan Rəfael Piriyev kimilər "siyasi fəaliyyətlərini" söyüş və təhqirli ifadələr etməkdə görür. Ancaq gülməli görünən odur ki, özgə yalağı ilə dolananlar bir-birilərinə "qrant alverçisi" deyir. Belə ki, Çexiyanın paytaxtı Praqada yaşayan Zamiq Məmmədli "Facebook" səhifəsində son vaxtlar Orduxan Bəbirov və Məhəmməd Mirzəlini qrant "alverçisi" adlandırır. Gülməli irad. Korkora kor deməsə, bağrı çatlar.

Onun ardınca Z.Məmmədli yazır ki, "Bu "diktatoru tanıdaq" kimi axmaq aksiyanın layihə müəllifi Leyla Yunusdur. Bu, aydın məsələdir. Bu yaxınlarda Leyla Yunus "siyasi məhbuslara yardım" layihəsi üzrə NED-dən (National Endowment for Democracy) 94000 avro qrant alıb, bir soruşun, hansısa siyasi məhbus ailəsinə ordan 10 avro verilibmi? Çalışın, bu fitvaya getməyin, siz ortalığa düşürsünüz, bu dəllallar pul qazanırlar! Bu aksiyaya qoşulanlardan isə soruşuram: Leyla Yunusdan 94 min avronun hesabını soruşmağa cəsarətiniz çatırmı? Amma 5000 km uzaqdan camaata "tırka" verməyi gözəl bacarırsınız...".

Görün qrant bu satqın və əxlaqsızları necə üz-üzə qoyub. Artıq heç kimə sirr deyil ki, "siyasi mühacir" adı altında olan ünsürlər ermənilərlə əməkdaşlıq etməklə, erməni lobbisinin göstərişlərinə uyğun idarə olunurlar və sözsüz ki, Vətən, millət, dövlət, xalq anlayışı belə şəxslərə yaddır. Bir də, bu, təəccüblü deyil. Çünki xəyanətkarın ağı-qarası olmur.

***Rəfiqə HÜSEYNOVA***

# Qurban Məmmədovun dişi Əli Kərimliyə və "Milli Şura"ya "batır"...

***Artıq uzun müddətdir ki, hazırda İngiltərədə yaşayan "hüquq müdafiəçisi" Qurban Məmmədovla vaxtilə təmsil olunduğu "Milli Şura" arasında kəskin qarşıdurmalar tam sürətilə davam edir. Xüsusilə, Q.Məmmədovun, bu və ya digər faktları ortaya çıxararaq, əsasən, AXCP və "Milli Şura" rəhbərliyində təmsil olunanları, o cümlədən, Müsavat, eləcə də, digər ənənəvi müxalifət təşkilat rəhbərlərinə bir sıra həqiqətləri xatırlatması, vəziyyətin gərgin qalmasına zəmin yaradır.***





### Vaxtilə Sərdar Cəlaloğlu qardaşı Qurban Məmmədovun həbsinin əsas baiskarının Əli Kərimlinin olduğunu bəyan etmişdi

Bu arada, Q.Məmmədovun qardaşı, ADP-nin sədri Sərdar Cəlaloğlunun, bir neçə il öncə, qardaşının həbsi ilə bağlı olayı şərh edərkən, həmin həbsin əsas baiskarının AXCP sədri Əli Kərimlinin olduğunu deməsini də xatırlatmaq yerinə düşərdi. Daha dəqiq desək, Q.Məmmədov ölkədə olarkən, yəni "Milli Şura"nın koordinasiya şurasında təmsil olunarkən, onun radikal çıxışları həbsi ilə nəticələndi. Məhz həmin ərəfədə S.Cəlaloğlu qardaşının həbs olunmasında günahkarın AXCP sədri olduğunu açıq-aydın bildirmişdi. O cümlədən, bunu belə əsaslandırmışdı ki, Ə.Kərimli hakimiyyətlə siyasi mübarizədə normal müxalifətçilik etmir və düşmənçilik mövqeyi sərgiləyir. Onun düşmənçilik etməsi isə, ətrafındakı adamların həbs olunmaları ilə nəticəsini tapır.

Əslində, ADP sədrinin AXCP sədrini ittiham etməsi əsasındakı ittihamlarında həqiqətin olduğunu deyə bilərik. Daha doğrusu, hakimiyyətə qarşı siyasi mübarizənin çərçivədən çıxaraq, dövlət maraqları əleyhinə yönəldikdə bütün qanunsuzluqlar həddini aşır. Belə olan halda, AXCP-"Milli Şura" cütlüyünün siyasi eyforiyasına qapılan Q.Məmmədov, nəticədə, radikalizmin qurbanına çevrilmişdi.

### Əli Kərimlinin trolları, hələ ki, iş başındadır

Məhz bu kimi hadisələrdən sonra radikal müxalifət "liderlərinin" iç üzlərini açan "hüquq müdafiəçisi", bəlli olduğu kimi, ardıcıl hücumlara məruz qalmaqda davam edir. Sosial şəbəkələrdə ona qarşı öz trolları vasitəsi ilə söyüş kampaniyası başladan Ə.Kərimli, görünür, hələ bu prosesi davam etdirmək fikrindən geri çəkilmək düşüncəsində deyil. Ancaq hələlik, görünən budur ki, onun "dişi" Q.Məmmədova "batmır".

Onu da qeyd edək ki, Q.Məmmədov, demək olar ki, hər gün özünə məxsus "Azerifreedom" internet TV-si üzərindən canlı bağlantılara qoşulur, qarşı tərəfin hücumlarına qarşı öz müdafiə sistemini qurur. Bu isə, bütün mənalarda, həmin savaşın davamlı xarakterdə qalacağı siqnallarını verir.

### Hələlik isə, Q.Məmmədovun "dişi" başda Ə.Kərimli olmaqla, "Milli Şura"ya batır, özü də dərinə işləyir...

Maraqlı məqamlardan biri də ABŞ-da, Avropa ölkələrində oturub, "siyasi mübarizə" apardıqlarını iddia edənlər - məsələn, Sevinc Osmanqızı, Tural Sadıqlı, Orduxan Teymurxan, Səid Nuri, Namiq Feyziyev və başqaları Q.Məmmədovla savaşda, elə də ciddi uğurlar əldə edə bilmirlər. Əksinə, "hüquq müdafiəçisinin" müxalifətə ittihamları daha çox arqumentlərə əsaslanır. Çünki onun bu günə qədər səsləndirdiyi bütün iddiaları cavabsız qalıb və yalnız söyüşlərlə, təhqirlərlə müşahidə olunub. Belə olan vəziyyətdə, sözügedən savaşın daha da dərinləşəcəyini bəri başdan proqnozlaşdıra biləcəyik. Hələlik isə, Q.Məmmədovun "dişi" başda Ə.Kərimli olmaqla, "Milli Şura"ya batır, özü də dərinə işləyir...

***Rövşən Nurəddinoğlu***

## Ölkəmizdə mehmanxana xidmətindən istifadə edənlərin sayı artıb

Bu ilin yanvar-iyun aylarında ölkənin mehmanxanalarında 1327,5 min gecələmə keçirilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,0 faiz çoxdur. Dövlət Statistika Komitəsinin açıqlamasında deyilir ki, gecələmələrin 63,3 faizi Bakıda, 8,7 faizi Qəbələdə, 4,0 faizi Naftalanda, 3,9 faizi Qubada, 3,8 faizi Qusarda, 3,4 faizi Naxçıvan Muxtar Respublikasında, 1,6 faizi Xaçmazda, 1,3 faizi Mingəçevirdə, hər birində 0,9 faiz olmaqla Qax və Gəncədə, 8,2 faizi isə digər rayonlardakı (şəhərlərdəki) mehmanxanalarda qeydə alınıb.

## Gömrük nəzarətinə bəyan edilməyən mobil telefonlar və aksesuarları aşkarlanıb

Gömrük nəzarətinə bəyan edilməyən mobil telefonlar və aksesuarları aşkar olunub. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında, "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn, Azərbaycan vətəndaşının idarə etdiyi "Hyundai Sonata" markalı avtomobil saxlanılıb və sürücüsü şifahi sorğu-sual edilib. Vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirsə də, yoxlama zamanı avtomobilin gizli saxlanc yerlərindən 4 ədəd "Redmi Note 7", 1 ədəd "MI 8 lite", 1 ədəd "Samsung Galaxy A50", 1 ədəd "Samsung Galaxy A30", 2 ədəd "Samsung Galaxy A20" markalı mobil telefon, 5 ədəd "qulaqlıq", mobil telefon üçün 11 ədəd qutu, 8 ədəd USB kabel və qidalandırıcı başlığı aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Qloballaşma dövründə Azərbaycan və insan hüquqları

**XXI *yüzillik dünyaya qloballaşma əsri kimi daxil olmuşdur. Yaşadığımız hazırkı dövr dünya ölkələri üçün radikal sosial, iqtisadi, siyasi, mədəni və mənəvi dəyişikliklərlə səciyyələnir. Dövlətlər arasındakı sərhədlərin şəffaflaşması, müxtəlif xalqların bir-birinə inteqrasiya etməsi, ikitərəfli münasibətlərin genişlənməsi və dərinləşməsi müasir dövrümüzün xarakterik cəhətlərindəndir. Müstəqil Azərbaycan Respublikası da ümumdünya inteqrasiya və qloballaşma cərəyanlarından kənarda qalmamışdır.***

Ötən əsrin axırlarında Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə getməyə, dünya ölkələrinə inteqrasiya olunmağa, qloballaşma prosesində fəal iştirak etməyə başladı. Lakin təəssüf ki, gənc müstəqil Azərbaycan dövlətinin istiqlalının elə ilk illərində ona "başçılıq" edən səriştəsiz rəhbərlərin "xidmətləri" sayəsində, ölkəmizi bir dövlət kimi məhv olmaq təhlükəsi təhdid edirdi. Daxili və xarici düşmənlərin birgə fəaliyyəti nəticəsində, Azərbaycan Respublikası idarəolunmaz vəziyyətə düşmüş, respublikanın ayrı-ayrı hissələrə parçalanması məqsədilə separat hərəkatlar genişlənmiş, cəbhədə Azərbaycan əraziləri birbirinin ardınca itirilməyə başlanmışdı.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələrək, ölkəni dünyanın siyasi xəritəsindən silinməkdən, bir dövlət olaraq, parçalanmaqdan xilas etdi. Dövlətimizin bütün sahələrində əsaslı islahatlara qədəm lər, köklü islahatlar aparılmış, ictimai-siyasi sabitlik təmin edilmiş, demokratiyanın inkişafı yolunda mühüm addımlar atılmışdır. Azərbaycan nüfuzlu və etibarlı tərəfdaş, perspektiv imkanları olan bir dövlət kimi, dünya dövlətləri birliyinə daxil olmuş və layiqli yerini tutmuşdur. Hələ 1993-cü il oktyabr ayının 10-da Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilən inauqurasiya mərasimində bildirmişdi ki, respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı və səriştəli xarici siyasətin yürüdülməsidir. Bu xarici siyasət, ilk növbədə, dövlətimizin müstəqilliyini təmin etməyə yönəldilməlidir. Ona görə də, Heydər Əliyev dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmağı və inkişaf etdirməyi məqsədəuyğun hesab edirdi. Bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə olunmalıdır.

Qloballaşma Azərbaycana xeyli uğurlar gətirə bilər. Neft- qaz və digər təbii sərvətlər baxımından, zəngin olan ölkəmiz üçün bu prosesdə beynəlxalq layihələrə qoşulmaq, transmilli korporosiyalarla qarşılıqlı əməkdaşlıq etmək, ölkəyə kapital axınını sürətləndirmək, beynəlxalq turizm sisteminə qoşulmaq və ondan yararlanmaq və s. amillər ölkəmizin sosial-iqtisadi inkişafı üçün münasib imkanlar açır. Lakin qloballaşmanın gətirdiyi uğurların əksinin də baş verməsi mümkündür.

XX əsrin ortalarından insan hüquqlarının beynəlxalq səviyyədə inkişafı və təşviqi mərhələsi başlamışdır. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleya-sı Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, habelə, sonrakı dövrlərdə "Mülki və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 1966-cı il tarixli Beynəlxalq Paktları qəbul etmişdir. Bundan əlavə, 1976-cı ildə "Mülki və siyasi hüquqlar haqqında" Pakta dair Birinci Fakültativ Protokol, 1989-cu ildə isə Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokol qəbul olunmuşdur. Həmin fundamental sənədlər İnsan Hüquqları haqqında Beynəlxalq Bill adlanaraq, bu sahədə beynəlxalq standartların əsasını təşkil etmişdir.

Qeyd olunmalıdır ki, Ümumdünya Bəyannaməsinin məqsəd və məramları, həmçinin, Avropa Şurası tərəfindən qəbul olunmuş İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyada (1950-ci il), Avropa Mədəniyyət Konvensiyasında (1954-cü il), Terrorizmin Qarşısının Alınması haqqında Konvensiyada (1977-ci il), Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasında (1995-ci il), Avropa Sosial Xartiyasında (1996-cı il) və ATƏT səviyyəsində imzalanmış 1975-ci il Helsinki Yekun Aktında, 1990-cı il Yeni Avropa üçün Paris Xartiyasında və digər beynəlxalq sənədlərdə özünün gələcək inkişafını tapmışdır.

Azərbaycan Respublikasının xarici siyasətində xüsusi yer tutan Avropa Şurası öz fəaliyyətində insan hüquqlarının müdafiəsi və demokratiyanın möhkəmləndirilməsini, sosial və hüquqi problemlərin birgə həlli yollarının araşdırılmasını, Mərkəzi və Şərqi Avropa ölkələrinə siyasi, qanunvericilik və konstitusional islahatların həyata keçirilməsində köməklik göstərilməsini və onlar arasında bu sahədə sıx əlaqələrin yaradılmasını rəhbər tutur.

Ölkəmiz insan hüquq və əsas azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçmişdir.

Demokratik, hüquqi dövlətin qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir.

Azərbaycan Respublikasında 1995-ci ildə Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu və insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk Milli Konstitusiyamızın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratmışdır. 2002-ci və 2009-cu illərdə referendum yolu ilə konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla, insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdir. Dövlətimizin ali məqsədinə nail olunmasında, müvafiq hüquqi qoyuldu və inkişafın əhəmiyyətli faktorlarından biri - daxili ictimai-siyasi sabitlik bərqərar oldu. Dahi rəhbər Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu.

Ulu Öndər Heydər Əliyevin parlamentə Sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə açıqlandı. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlandı.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda mübarizəsi strateji məqsəd daşıyırdı. Ulu Öndər Heydər Əliyevin ən böyük xidməti ondan ibarətdir ki, O, Azərbaycan dövlətçiliyini qoruyub-saxladı. Dövlətçiliyimizin qorunub-saxlanılması isə müstəqilliyimizin, azadlığımızın möhkəmlənməsi deməkdir. O vaxtdan keçən müddət ərzində, Azərbaycanda həyatın bir sıra sahələrində pozitiv dəyişiklik-mexanizmlərin yaradılmasında, o cümlədən, mükəmməl qanunvericilik bazasının formalaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fevralın 22-də imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı xüsusi əhəmiyyətə malikdir. Həmin dövrdə Ulu Öndərimiz tərəfindən təsdiq edilmiş "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" bu sahədə ilk fundamental sənəd olmaqla:

- qanunvericilik və institusional islahatların aparılmasına;

-demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatın yaradılmasına;

- hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsinə;

- qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsinə və digər istiqamətlər üzrə inkişafa təkan vermişdir.

2 iyul 2002-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Ombudsman Təsisatının yaradılması ilə bağlı qanunvericilikdə öz əksini tapmış bu yeniliklər 2002-ci il avqustun 24-də keçirilən ümumxalq səsverməsi (referendum) yolu ilə edilmiş dəyişikliklər nəticəsində, ölkə konstitusiyasında təsbit edildi.

İlk gündən Ombudsman Təsisatının işinin təşkili ilə bağlı mühüm işlər həyata keçirilmişdir. 2002-ci il sentyabrın 17-də Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Ombudsman Təsisatının büdcəsi təsdiq edilmiş, ilk maliyyə əməliyyatları oktyabrın sonundan başlamışdır. Ombudsman Təsisatının Azərbaycan üçün yeni olduğunu, Ombudsman haqqında məlumatların cəmiyyətdə yayılmasına böyük ehtiyac duyulduğunu, bu təsisatın digər dövlət orqanları ilə əməkdaşlığının qurulması zərurətini nəzərə alaraq, 2002-ci ilin sentyabr-oktyabr aylarında BMTİP-nin "Ombudsmanın yaradılmasına və Azərbaycan Respublikasının parlamentinin potensial imkanlarının artırılmasına yardım" Layihəsi çərçivəsində Avropa Şurasının İnsan Hüquqları üzrə Ali Komissarı cənab Alvaro-Hil Roblesin iştirakı ilə "Azərbaycanda Ombudsman Təsisatının yaradılması və demokratiyanın inkişafında rolu" mövzusunda, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən şikayətlərə baxılması qaydası" mövzusunda, Avropa Şurasının, ATƏT-in, BMT-nin və digər beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "Azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının qorunması sahəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin fəaliyyəti" mövzusunda və Kosovonin Ombudsmanı Marek Novitskinin, Avropa Şurası Katibliyinin İnsan Hüquqları üzrə İkinci Direktorluğunun Baş direktoru K.Zimanın iştirakı ilə "İnsan Hüquqlarının və Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının Ombudsman Təsisatı tərəfindən tətbiqi" mövzusunda silsilə seminarlar keçirilmişdir.

Beləliklə, tam əsasla vurğulaya bilərik ki, Azərbaycan Respublikasında İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi üçün Ulu Öndərimiz tərəfindən təməli qoyulmuş strategiya dövlətin siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə real zəmanət verir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 27 iyul

## Braziliyada 750 kiloqram qızıl oğurlanıb



Braziliyanın San Paulo şəhərində hava limanında 750 kiloqram qızıl oğurlanıb. 30 milyon dollar dəyərində olan qızılın Nyu-York və Sürix şəhərlərinə aparılması planlaşdırılırdı. Anadolu Agentliyi xəbər verir ki, hadisə 8 silahlı şəxs tərəfindən törədilib. Polis geyimində olan cinayətkarlar hava limanının 2 əməkdaşını da girov götürüblər. Hadisə nəticəsində yaralanan olmasa da, girovlarla bağlı heç bir məlumat verilmir.

## Yenilik: Şəkərin miqdarı tər damcısı ilə ölçüləcək



Rusiya alimləri qanın tərkibində şəkərin miqdarını tər damcısı ilə ölçəcək üsul hazırlayıblar. AZƏRTAC xəbər verir ki, bu yeni metod barədə məlumatı Moskva Dövlət Universitetinin (MDU) mətbuat xidmətindən TASS informasiya agentliyinə bildiriblər.

Məlumatda bildirilir ki, yeni biosensor bədəndəki təri fasiləsiz olaraq analiz edir və qanın tərkibində normadan artıq şəkərin miqdarı barədə xəbərdarlıq edir. MDU-nun kimya fakültəsinin alimləri biosensorun prototipini təqdim ediblər və qeyd ediblər ki, bu yeni cihaz şəkərli diabetdən əziyyət çəkənləri tez-tez qan analizi verməkdən xilas edəcək. Onların sözlərinə görə, yeni biosensor yüz milyonlarla diabetli insanın həyatını yaxşılaşdıracaq.

MDU-nun laboratoriyalarında könüllülər üzərində keçirilən testlər zamanı aydın olub ki, qanda şəkərin miqdarının müəyyən edilməsinin qeyri-invaziv metodu diabetin monitorinqi məqsədilə qanla tər arasında olan korrelyasiyanı ölçməklə həyata keçiriləcək.

Dünya Səhiyyə Təşkilatının hesabatına görə, planetimizdə əhalinin 5 faizi şəkərli diabetdən əziyyət çəkir. Diabet ürək-damar xəstəlikləri, korluq, aşağı ətrafların amputasiyası, böyrəklərin fəaliyyətinin pozulması və digər ağır fəsadlara səbəb olur. Bu xəstəliklərin inkişafının qarşısını almaq üçün diabetdən əziyyət çəkən insanlar qanın tərkibində qlükozanın səviyyəsinin müəyyən normalar daxilində qalmasına nəzarət etməlidirlər. Lakin qan analizi onlarda rahatsızlığa səbəb olur və müəyyən risklər yaradır. Bu səbəbdən alimlər uzun müddətdir ki, qeyri-invaziv metodlar üzərində iş aparırlar. MDU-nun laboratoriyalarında hazırlanmış biosensor prototipi qlükooksidaz ferменti daxil edilmiş platin elektroddan ibarətdir. Onun daxilində tərdə olan qlükoza qlükooksidazla birləşir və nəticədə hidrogen peroksid yaranır. Bu maddə isə dolayısı ilə qlükozanın səviyyəsini müəyyən edir.

## Əbu-Dabi dünyanın ikinci ən mədəni şəhəridir



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi "Skyscanner" biletlərin bron edilməsi internet-portalının araşdırmasının nəticələrinə görə, dünyanın ən mədəni şəhərləri siyahısında ikinci yerdədir.

"Arabian Business" elektron nəşrinin məlumatında deyilir ki, İtaliyanın Florensiya şəhəri dünyanın ən mədəni şəhəri adlandırılıb. Məşhur Luvr muzeyinin filialı və Şeyx Zayedin Böyük məscidi olan Əbu-Dabi, həmçinin Yaxın Şərqin səyahətçilərin dünya görüşünü genişləndirən ən cazibəli şəhəri sayılıb. Resursun məlumatına görə, BƏƏ-nin paytaxtında elektron musiqinin populyarlaşdırılması, çoxlu sayda tarixi və mədəni irsə aid abidələrin mövcudluğu da turistlərin diqqətini cəlb edir.

## "Neftçi"dən Rusiyada əzmkar qələbə!



UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin ilk oyunları çərçivəsində Bakının "Neftçi" klubu Rusiyanın "Arsenal" (Tula) komandasının qonağı olub. Tula şəhərindəki mərkəzi stadionda albaniyalı baş hakim Enea Jorgjinin idarə etdiyi oyunun birinci hissəsi qarşılıqlı hücumlar şəraitində keçib. Hər iki komanda hesabı açmağa yaxın olsa da, birinci hissəyə əlavə olunmuş vaxtda "Neftçi" istəyinə nail olub. Belə ki, 46-cı dəqiqədə Dario Frederikonun qolu Bakı təmsilçisini hesabda önə çıxarıb. Matçın birinci hissəsi "Neftçi"nin minimal üstünlüyü ilə başa çatıb - 1:0.

Komandaların cəhdlərinə baxmayaraq ikinci hissədə qapılara top vurulmayıb. Beləliklə, "Arsenal" (Tula)-"Neftçi" oyunu Bakı təmsilçisinin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Komandaların cavab görüşü avqustun 1-də Bakıda keçiriləcək.

## "Barselona" Koutinyonu 120 milyon avroya satacaq



İspaniyanın "Barselona" futbol klubu braziliyalı yarımmüdafiəçi 27 yaşlı Filipp Koutinyonu 120 milyon avroya satmaq niyyətindədir. "Qazeta.Ru" saytı bu haqda "Mundo Deportivo" nəşrinə istinadla məlumat verib. İspaniya komandasının rəhbərliyi bu oyunçunun transferinə görə ən azı bu məbləği almağı nəzərdə tutur ki, klub həmin futbolçunu alarkən çəkdiyi xərclərin əvəzi çıxsın.

Yarımmüdafiəçinin transferinin bütün məbləği 135 milyon avroya bərabərdir. Bu məbləğdən 120 milyon avro Koutinyonun keçidi üçün qiymət, daha 15 milyon avro bonuslar şəklində müəyyən edilib. AZƏRTAC xəbər verir ki, braziliyalı futbolçu ildə 14 milyon avro alır. "Barselona"nın rəhbərliyi hesab edir ki, Koutinyonu almağa yalnız İngiltərənin "Mançester Siti" və ya "Mançester Yunayted", həmçinin Fransanın "Pari Sen-Jermen" komandalarının imkanı ola bilər.

Yarımmüdafiəçi keçən mövsümdə iştirak etdiyi bütün turnirlərdə 54 matç keçirib, bu oyunlarda 11 qol vurub və 5 uğurlu ötürmə edib. O, "Barselona" komandasının heyətində iki dəfə İspaniya çempionu, İspaniya Kubokunun və İspaniya Superkubokunun sahibi olub. Koutinyo Braziliya yığmasının heyətində 55 görüş keçirib, bu oyunlarda 15 qol vurub. Onun aktivində bu il Amerika Kubokunun qızıl medalı da var.

## Çexiyalı çempionlar: "Bakıda qızıl medal qazandığımız üçün xoşbəxtik"

XV Avropa Gənclər Yay Olimpiya Festivalında ölkəmizi layiqincə təmsil etdik. Komanda yarışlarında qızıl medal qazandıq. Çox sevinirik. Bu sözləri AZƏRTAC-a müsahibəsində "EYOF Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalında tennis üzrə oğlan cütlüklərin yarışında qızıl medal qazanan Metyu Uilyam Donald və Hynek Barton deyiblər.

İdmançılar qeyd ediblər ki, Bakı festivala çox yaxşı hazırlaşıb. "Bakıya qızıl medal üçün gəlmişdik. Gərgin oyunlar keçirdik. Məqsədimizə nail olduğumuza görə çox xoşbəxtik. Yarışlar üçün yaradılan şəraitə, yüksək səviyyədə təşkilatçılığa görə Azərbaycan hökumətinə təşəkkür edirik. Artıq bizim üçün Bakının yeri xüsusidir", - deyə çexiyalı tennisçilər vurğulayıblar.

## Dario Federikonun durumu açıqlandı



Avropa Liqasının II təsnifat mərhələsinin "Arsenal"la səfər oyununda məcburi əvəzlənən "Neftçi"nin futbolçusu Dario Federikonun zədəsi ciddi deyil. Klubun mətbuat xidmətindən Qol.az-a verilən məlumata görə, braziliyalı hücumçu Rusiya klubu ilə cavab oyununda meydana çıxmağa hazırdır. Qeyd edək ki, "Neftçi"nin qələbə qolunun müəllifi matçın 73-cü dəqiqəsində zədələnərək Namiq Ələsgərovla əvəzlənmişdi. Komandalar arasında cavab matçı avqustun 1-də "Bakcell Arena"da olacaq.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600